İnsan kapitalı təməl olaraq təhsil və tədrisə investisiya etmənin nəticəsi olaraq ortaya çıxan bir sərmayədir.Insan kapitalı yığılması,təhsilin və cəmiyyətin sağlamlıq səviyyəsi ilə birlikdə,gənc və dinamik bir əhali quruluşu ilə insan kapitalı köçü də mühüm rola sahibdir.Sağlam bir cəmiyyət,həm təhsilin məhsuldarlığını artırmaq baxımından,həm də insan kapitalından daha uzun müddət istifadə etmək üçün vacibdir.Gənc və dinamik toplum isə insan kapitalı üçün əsas bir mənbə hesab olunur.Çünki ölkə əhalisinin əsas bir hissəsi gənclərdən təşkil olunması,təhsil verəbiləcək və işləyəbiləcək insan sayının çoxluğu mənasına gəlir. Bu da həmin ölkənin insan kapitalı səhminə vacib fayda verəcəkdir.Başqa ölkələrdən insanların təhsil almaq və işləmək məqsədilə gəlməsi və ya bizim ölkəmizdən başqa ölkələrə getməsi,insan kapitalı köçündə əsas səbəblərdəndir.

Sağlıq təhsil ilə yanaşı insan kapitalının vacib bir elementi kimi qəbul edilir . Ümumiyyətlə, aşağı təhsilli və az gəlirli qonşuları olan aşağı sosial-iqtisadi səviyyəli bölgələrdə yaşayan şəxslər psixi sağlamlıq problemlərindən daha çox əziyyət çəkirlər.Təhsil səviyyəsi artdıqca zehni sağlamlıq problemlərinin azaldığı göstərilir. Çünki fərdlərin həm təhsil almaları həm də almış olduqları təhsili istifadə etməklə iqtisadi fəaliyyətə qoşulmalar ancaq sağlaml olmaqları ilə mümkün olacaqdır.Yəni əhalinin sağlam olması insan kapitalının təşkilinə təsir edən əsas ünsürdür.

Cəmiyyətin sağlamlıq səviyyəsi insan kapitalının formalaşmasında və inkişafında mühüm rol oynayır. İnkişaf etmiş ölkələrdə səhiyyə üçün ayrılan

mənbələrin artırılması və bu ölkələrdə yaşayan şəxslərin sağlamlıq məlumatlılığının artırılması sağlam şəxslərin sayının artmasında mühüm rol oynayacaqdır . Sağlam fərdlərin sayının artması iqtisadi artıma və inkişafa da müsbət təsir göstərəcəkdir.

Orta ömrün uzadılması cəmiyyətdə sağlamlıq səviyyəsinin yaxşılaşmasının nəticəsidir. İnkişaf etmiş ölkələrdə orta ömür uzunluğu qalanlardan daha uzun olur. Orta ömür uzunluğu insan kapitalı üçün vacib bir müəyyənedicidir. Orta ömrün artması aktiv iş müddətinin artmasına səbəb olacaqdır. Sağlamlıq insan kapitalına qoyuluş kimi qəbul edildiyi üçün aktiv iş vaxtının artması, investisiyanın səmərəliliyinin artması olacaqdır. Sağlam cəmiyyət bir tərəfdən təhsilin faydalılığının artırılmasına və insan kapitalının uzunmüddətli istifadəsinə mühüm töhfə verəcəkdir.

Ətraf mühit insan sağlamlına təsir göstərən əsas amillərdən biridir. İnsan kapitalına qoyulan investisiyalardan biridə ətraf mühit üçün olan tədbirlərdir. Azərbaycanda dayanıqlı sosiali qtisadi inkişafa nail olmaq üçün 2020 ci il konsepsiyalarında ətraf mühitin qorunması üçün tədbirlər nəzərə alınmışdır. Təbiətdəki müxtəlifliyin təhlükəsizliyin təmin edilməsi, ətraf mühitdə yanacaq-enerji yaratdığı mənfi təsirlərin neytrallaşdırılması, dənizlərin göllərin və onların akvatoriyasının çirklənməsinin qarşısın alınması, yaşıllıqlar salınması və mövcud olan sərvətlərin səmərəli şəkildə mühafizəsi istiqamətində lazımlı tədbirlər 2020 ci ildə və gələcək illər də davam etdiriləcəkdir.

Respublikada sosial iqtisadi potensial artıqca əhalinin sağlam həyat tərzi yaşaması üçün bütün tədbirlər görülür.Səhiyyəmizin inkişaf etməsi ilə əhalinin sağlamlığının necə qorunması ilə bağlı problemlər həll yolunu tapır. Ölkəmizdə səhiyyəyə qoyulan investisiya son 10 il ərzində 10 dəfə artmışdır.Hal-hazırda investisiya dəyəri 650 milyon manata çatmışdır. Bütün tibbi mərkəzlər(xəstəxanalar,təcili tibbi yardım,reabiltasiya mərkəzləri və.s)yeni texniki təchizatlarla təmin edilmişdir. Respublikamızın bütün bölgələrindəki 400-dən artıq tibb müəssisəsi yeni üsullarla təmir olunmuş və tikilmişdir. Ölkə əhalisinin sağlamlığın qorunması üçün zəruri olan bir sıra tədbirlər görülür.Həmçinin tibbi

xidmətlərin daha yaxşı olması üçün lazımlı işlər aparılır.Əsas prioritet istiqamət olaraq əhalini yoluxucu xəstəliklərdən mühafizə tədbirləri olmuşdur. Bununla məsələ ilə əlaqədar olaraq bir çox nailiyyətlər əldə edilmişdir.

Meşəsalma və meşələrin bərpa edilməsi işləri nəticəsində meşə sahələrinin ümumi torpaq sahələrinə nisbətdə artması üçün tədbirlər görüləcəkdir, yolkənarı və insanların daha çox istifadə etdiyi ərazilərin atmosfer havasının çirklənmədən qorunması, həmçinin nəqliyyatın hərəkətindən yaranan səs-küyün azaldılması üçün yolqoruyucu yaşıllıqlar salınacaq və ağaclar əkiləcəkdir. Təbiətə atılan zərərli maddələrə qarşı tədbirlər Avropa standartlarına uyğun olaraq hazırlanan milli standartlarla tətbiq ediləcəkdir. Qarşıya qoyulan tədbirlər təbii sərvətlərdən(neft,qaz,su və s) səmərəli şəkildə istifadə həmçinin ətraf mühitin qorunması məqsədi ilə tullantıların qarşısın alınması, tullantıların təkrar emal edilməsi, təkrar istifadəyə verilməsi, bununla yanaşı az tullantılı və ya tullantısız texnikaların tətbiqi istiqamətində əsas işlər görüləcəkdir. Tullantıların zəruri idarə edilməsi sahəsində lazımlı metodlardan istifadə olunacaq, sənaye və məişət tullantılarının təkrar istehlak və istehsalı üçün müəssisələr yaradılması tədbirləri görüləcəkdir.

Bu Konsepsiyanın əhatə etdiyi dövr ərzində Azərbaycanda orta hesabla bir vahid ÜDM istehsalına görə istifadə edilən enerjinin və emissiya olunan karbon dioksidin miqdarı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrinin göstərcilərinə yaxınlaşması nəzərə alınır.

Gənclərin potensialının artırılması və idmanın inkişafı üçün qoyulan investisiyalar insanın inkişafına müsbət təsirlər edir. Azərbaycan gənclərinin sağlam həyat formasının təşviq edilməsi. Onların cəmiyyətə inteqrasiyasını olunmasını təmin etmək üçün Azərbaycan gənclərinin İnkişaf Strategiyası 2013-2023-cü illəri əhatə edən və 2016-2020-ci illər üçün Dövlət Proqramı, 2012-2020-ci illər müddətin də idmanın inkişafı və bədən tərbiyəsi üzrə Milli Strategiya və 2013-2016-cı illər üçün Dövlət Proqramı hazırlanıb tətbiq edilsin.

Gənclər, əsasən ucqar kənd yerlərində yaşayan uşaq və gənclərin inkişafı üçün məsləhət xidmətləri şəbəkəsi təsşkil ediləcəkdir. Yeni Gənc nəslin əmək və iqtisadi əlaqələrə erkən yiyələnmələri üçün səmərəli forma və metodlar tətbiq ediləcəkdir.Onların iş qabiliyyətlərini artırmalarına dəstək olunması tədbirləri görüləcəkdir. Ali təhsil (ölkə və xarici) müəssisələrini bitən gənc mütəxəssislərin Azərbaycanın bütün bölgələrində işləməsi üçün tədbirlər görülməsi, həmçinin bununla əlaqədar olaraq gənclər üçün əlavə sosial iqtisadi dəstək mexanizmlərinin (əməkhaqqına və müavinətlərə əlavələrin artırılması, xidməti mənzillərin ayrılması və s.) yaradılması və bu kimi işlər təmin ediləcəkdir.2020 ci ilə kimi fəaliyyət göstərən bütün idman klubları,uşaqlar və gənclər üçün idman zalları,idman məktəblərinin zəruri texniki cihazlarla təmin ediləcəkdir.Sağlam gələcək üçün bütün tədbirlər görüləcəkdir. Bu konsepsiyada gənclərin inkişafına yönələn investisyaların ayrılması nəzərdə tutulmuşdur və bütün tədbirlərin görülməsi əsasdır.

1.3.Təhsil və insan kapitalının inkişafı

Dünya da ictimai inkişafın bütün səviyyələrində cəmiyyətin təhsillə birbaşa əlaqəsi olmuşdur. Ən qədim fəaliyyətlər gənc nəsillərin təhsili, təlimi, maarifləndirilməsidir. Şübhəsiz ki, təhsil cəmiyyətdə ən önəmli faktordur çünki o bir başa cəmiyyətin inkişafı ilə əlaqəlidir. Təhsilin vacibliyi bir çox faktlarla bağlıdır.Məsələn,uşaq anadan olduğu vaxt danışmağı, oxumağı və yazmağı bilmir lakin böyüdükcə yaşadığı mühitin mədəniyyətini,dilini,dinini mənimsəyir. Savadlı müəllim kadrları və ailənin təlim tərbiyəsi ilə birlikdə onlara doğru bilik bacarıqlar aşılanır.

İnsan inkişafına təsir edən əsas amillərin başında təhsil durur və bu inkişafın indeksin də 3 əsas amildən biri kimi durur.Dünya da təhsil amilini insan hüquqlarının əsas sıralarında yer alır.Bacarıq,bilik və nailiyyətlər əldə etməsi üçün təhsil şərait yaradır.Eyni zamanda təhsil insan kapitalını qurur,yaşamın keyfiyyətinə təsir edir və ekonomik artım mənbələrinə təsir göstərir. Müasir təlim təhsil mərkəzləri cəmiyyətin adət-ənənə və mədəni irsini yeni gələn nəsilə ötürməyə şərait yaradır və cəmiyyəti

texnologiyanın inkişafı ilə birlikdə yeni bilik bacarıqlar öyrədir.Həmçinin bu zamanda təhsil alarkən uşaq və gənclər davranış və danışıq stereotipləri ilə yanaşı ətraf aləm haqqında təsəvvür formalaşır.

İnsan kapitalı inkişafı baxımından təhsil prosesi müddəti insanın şəxsi keyfiyyətlərini əhəmiyyətli dərəcədə artırır. Təhsilin səviyyəsi insanların sosial həyatlarının hər birnhissəsinə təsir edir.Məsələn sağlamlıq,nizam-intizam,siyasi-iqtisadi fəaliyyətinə və s hər bir cəhətdən təsir göstərir.Təhsil ev təsərrüfatlarından istifadə edilməsində, uşaqların təlim tərbiyəsində, insanların qidalanması formasından, sağlamlığının və daha yaxşı təhsilinin təşkil edilməsində yeni bilik və texnologiyaların istifadə edilməsinə təsir göstərir və şərait yaradır.Qadınların ailədə təhsilli olması önəmlidir çünki ana təhsilli olduğu zaman uşağın necə qidalanmasına,təlim tərbiyəsinə,uşaqlara qulluğa diqqət daha çox olur beləliklə uşaq ölüm əmsalı aşağı düşür və insan kapitalı müsbət mənada inkişaf edir.Təhsilli nəsil daha yaxşı işin öhdəsindən gəlir və həmin işi daha keyfiyyətli icra edir.Təhsilli insanlar fiziki və insan kapitalından doğru şəkildə istifadə edərək iqtisadi kapitalının inkişafını artırırlar.

Təhsil mərkəzlərinin(müəssələrinin)- əsasən universitetlərin etməli olduqları əsas funksiya sosial iqtisadi həyatın bütün sahələrində istifadə ediləcək yeni biliklər tətbiq edilməsidir.Elm və texnikanın sürətli inkişafı texniki və səhiyyə xidmətlərinin radikal dəyişmələri elmi biliklərin inkişafı ilə əlaqəlidir.Təhsil, təhsil alan şəxslərə birbaşa təsir edərkən, eyni zamanda cəmiyyətə dolayı təsir göstərə bilər .Təhsil fərdlərin yetişməsində mühüm bir funksiyaya sahibdir, bununla yanaşı biliyi artan şəxslərlə ölkənin inkişafına təsir göstərir.Bilikli şəxslər ölkənin inkişafına təsir edir. Buna görə də insan sərmayəsi tədqiqatlarında təhsil və insan kapitalı anlayışlarının birlikdə istifadəsi geniş yayıldı. İqtisadiyyatın potensialını və davamlı iqtisadi inkişafı sürətləndirmək üçün fərdin insan kapitalı kimi fəaliyyətini artıracaq biliklər əldə etməlidir. Buna nail olmağın yeganə yolu təhsildir. Buna görə təhsilin insan kapitalının formalaşmasında ən vacib amil olduğunu söyləmək olar . Təhsil qeydləri,

maliyyə göstəriciləri, fiziki göstəricilər və savad göstəriciləri təhsilin səviyyəsini müəyyən edən əsas meyarlardır . Təhsil qeydləri əhalinin ibtidai, orta və ali təhsil kimi müxtəlif səviyyələrdə bölüşdürülməsini göstərir. Fiziki göstəricilər tələbələrin və müəllimlərin sayından, hər müəllim başına düşən şagirdlərdən , məktəblərin sayı, laboratoriya və s. ibarətdir. Savadlılıq səviyyəsi isə təhsil səviyyəsini və insan kapitalı səviyyəsini ölçmək üçün istifadə olunan ən sadə göstəricidir.

Təhsilin sosial-iqtisadi sahələrdə aşağıdakı istiqamətləri var:

- Iqtisadiyyat və şəxsiyyət üçün təhsilin xalis dəyəri
- Bütün təhsil formalarına edilən yatırımlar
- əmək qüvvəsinə təhsilin təsiri xüsusilə qadınların əmək qüvvəsinə
- iqtisadi artımın təhsillə əlaqəsi,həmçinin fiziki kapitalın iqtisadi inkişafa təsiri
- təhsildə bərabərlik(qızlar,əlliliyi olan insanlar,etnik azlıqlar vəşs)
- siyasi sferada təhsil
- sosial inkişafın təhsilə təsiri

İnsan kapitalının inkişafında təhsilin rolundan danışılanda iki istiqamətdə baxılır:

- Insan potensialını artılmasına təhsilin təsiri
- Insan kapitalının yaradılmasında təhsil rolu danışılır

İnsan kapitalı nəzəriyyəsinə görə təhsil yatırımlarının məqsədi əmək məhsuldarlığını artırmaqdır. İnsan kapitalı inkişafı yanaşması tərəfdarlarının fikrinə görə iqtisadi inkişafın əsas təməli insandır.

İnsan inkişaf sisteminin nəzəri əsaslarından biri insan kapitalı nəzəriyyəsidir. Bu nəzəriyyəyə baxımından, təhsil və sağlamlıq, ilk öncə əməyin məhsuldarlığının yüksəldilməsi ilə mal və xidmətlərin istehsalının artması, sonra isə işçilərin öz gəlirlərinin artması qayəsini daşıyan bir investisiya obyektidir. İqtisadi inkişafın son

vəziyyətdə insanın rifahıdan ötrü olduğunu təməl tutan insan inkişafı yanaşması işçi qüvvəsinin məhsuldarlığının artmasında insan kapitalının əsas amil olduğu qəbul edilir, lakin ən əsas məqsəd kimi elə bir sosial-iqtisadi atmosferin yaradılmasını təyin edir ki, bu vaxt hər insanın iqtidarlarının inkişafı və istifadəsi təmin edilsin. Iqtisadiyyatın gəlirlərinin və məhsuldarlığının artmasına insan imkanlarının inkişafı səbəb ola bilər, amma bu nəticələr əhalinin maddi və mənəvi rifahına müsbət təsir edir və insan yaşamının fərqli sahələrində inkişafa müsbət təsir etdikdə məna ifadə edir.

Məlum olduğu kimi, ekonomik artım insanın potensialının inkişafına, əsasən də ölkə əhalisinin təhsil səviyyəsinə sürətlə yüksəlməsinə təsir edir.Buna görə də, iqtisadi artımın və milli sərvətlərin formalaşdırılmasına vacib təsir edən amil təhsildir.

İqtisadçılar uzun zaman təxmin etmişlər ki, fiziki kapital hər hansı bir ölkənin iqtisadi resurslarının vacib hissəsidir, maddi-əşyavi dəyərdir. 1995-ci ildə Dünya Bankının 192 ölkə ilə apardığı tədqiqatı belə bir nəticə verdi ki,ümumi sərvətin təkcə 16%-ni fiziki kapital tutur, insan kapitalı isə təhsili və ümumi sərvətin 64%-ni təşkil edir.Deməli insan kapitalı mühüm əhəmiyyət daşıyır. Yüksək gəlirli iqtisadiyyatı olan Almaniya, Yaponiya və İsveçrə kimi ölkələrdə isə ümumi kapitalın 80%-ni insan kapitalından ibarətdir.

Bundan əlavə olaraq, neoklassik iqtisadi nəzəriyyədə belə qeyd edilirdi ki, fiziki kapitalın yığılması, işçi qüvvəsinin artmasının, həmçinin də əməyin məhsuldarlığını artıran texnoloji inkişafın nəticəsidir və bu zaman texnoloji inkişafın səbəblərinə əsasən ekzogen amil kimi göstərildi.İnsan kapitalı məhsuldarlıq və insan əməyi,fəaliyyəti ilə birbaşa əlaqəli olması iqtisadi modellər nəzəriyyəsində qeyd edilmişdir.İqtisadi artım modelləri insan kapitalının əhəmiyyətini belə göstərir ki, istehsal prosesində səmərəliliyi artıran əsas amil təhsil , təhsilli insanlar digər insanlara nəzərən kapitaldan daha məqsədyönlü istifadə edir. Yüksək təhsil səviyyəsi və elmi biliklərin genişlənməsi istehsalın məhsuldarlığını artırır.

Əhalinin təhsilli olması heç də o demək deyil ki, iqtisadi artımı avtomatik yüksək tempinə zəmanət verir. Eyni regionda yerləşən ölkələrin iqtisadi göstəricilərinə baxarasaq görə bilərik ki,əhalisinin təhsil səviyyəsi ondan aşağı olan ölkənin iqtisadi artım göstəricisi yuxarı ola bilər. Təhsil səviyyəsi yuxarı olan ölkələrin zəif iqtisadı tərəqqisi olmasının aşağıdakı faktlarla aydınlaşdırmaq olar.

- Ölkədə insan kapitalından effektiv istifadə edilməməsi ;
- Təhsilə və insan kapitalına qoyulan investisiyaların qeyri-rasional formada keçirilməsi
- Orta və ali təhsil müəssələrində təhsilin keyfiyyətinin aşağı olması
- Ölkənin inkişafı üçün doğru planın qurulmaması və səhv idarəetmə sistemi

İnsan kapitalının inkişafı bilik iqtisadiyyatının təşkilinə yönəlmişdir, o fiziki kapitalın yaradımasına zəmanət vermir. Bilik iqtisadiyyatında həlledici rol intellektual resurslara əsaslanır.Əvvəllər bilik iqtisadiyyatına və iqtisadi fəaliyyətlər bilik amilinə əsaslanırdı,ancaq indi iqtisadiyyatda bir şox fundamental dəyişikliklər yaranmışdır.

Schultz, insan kapitalına qoyuluşların təsnifatı mövzusunda etdiyi araşdırmada təhsilə böyük əhəmiyyət vermişdir. Schultz ,ilk orta və ali təhsilə formal yanaşır və bunu insan kapitalına qoyulan vacib bir investisiya kimi baxır.

Bəşəri sərmayə yığılmasında Harbison və Myers ilk, orta və ali olaraq alınan təhsili formal təhsil olaraq adlandırarkən iş təhsili ya da iş başında təhsili isə informal təhsil olaraq xarakterizə etməkdədirlər. Bu təhsillərin alınması müxtəlif təşkilatlarda işə qəbul şəklində ola biləcəyi kimi, böyüklər üçün təhsil proqramları və müxtəlif qruplara üzvlük formasında da alına bilər. İnsan kapitalının inkişafı ilə əlaqəli başqa bir üsul özünütərbiyə və təhsilləndirmədir. Bu metodda fərdlərin yalnız biliklərini artırması, yəni daha çox bilik və bacarıq inkişaf etdirməsi yalnız fərdi səy göstərərək mümkündür.

İnsan kapitalının iki tərəfli bir təsir göstərəcəyini vurğuladığı bu araşdırmada Lucas dayanıqlı inkişafın insan kapitalının yığılması ilə mümkün olduğunu söylədi və təhsilin insan kapitalı yığımını təyin edən əsas amili olaraq qəbul edilmişdir. Lukasın fikrincə, insan kapitalı əvvəlcə işçi qüvvəsinin məhsuldarlığını artırarkən mövcud istehsal amilləri ilə daha çox istehsalın olunmasını təmin etməkdir .

Psacharopoulos və Patrinos Tədqiqatlarında, təhsili zəif olan ölkələrin sosial gəliri təhsil nəticələri yüksək olan inkişaf etmiş ölkələrə nisbətən aşağı olduğunu bildirmişlər. Psacharopoulos sərmayənin bir növü olaraq görülən insan kapitalının inkişafının nə olacağını sorğuladığı tədqiqatda, fərqi yerlərdə alınan təhsillərin şəxsi və sosial gəlirlərini hesablamışdır.

Barro ve Lee,1993-ci ildə 129 ölkəyə aid 1960-1985-ci illəri əhatə edən 25 yaşdan yuxarı əhalinin məzun olduğu məktəb ili məlumatlarını istifadə etdikləri çalışmada, təhsillə ekonomik inkişaf arasındaki əlaqəni tədqiq eləmişlər.Bu tədqiqatda, məktəbəqədər çərçivəsində oğlan və qız uşaqlarının ekonomik böyümə ilə məktəbə getmə illəri arasında mənalı və pozitiv bir əlaqə edilərkən, ortaməktəb və ali təhsil səviyyəsində qadınların iqtisadi dəyər vermələri yüksək lakin kişilərin böyüməyə töhfə vermələri aşağı olmuşdur.[11]

Kim və Lee texnologiya ilə təhsil arasındakı əlaqəni araşdırdıqları tətqiqat da təhsil və texnologiyanın bir-birlərini tamamlayıcı bir quruluşda olduqları nəticəsinə çatdıar və işdə texnoloji inkişafın iqtisadi böyümə üzərində müsbət təsir yaradabilməsinin texnoloji inkişafla uyğun bir insan kapitalı stoku ilə mümkün ola biləcəyini ifadə etmişlər.

Ölkəmizdə təhsilin inkişaf etdirilməsi üçün bir çox tədbirlər görülməsi 2020 ci ildə qarşıya qoyulan əsas məqsəddir. 2013–2020-ci illərdə təhsil sahəsinə ayrılan xərclər inkişaf etmiş ölkələrlə eyni səviyyədə olması gözlənilir və bu vəsait ilbəil artmağa davam edir. İnsan kapitalına qoyulan əsas xərclərdən biri də elə təhsil sahəsinə qoyulmuş xərclər hesab olunur.

Məktəbəhazırlıq prosesini genişləndirlərək,bütün ümumi təhsil müəssisələrində dövlət büdcəsinin hesabından 5 yaşlı uşaqların məktəbəqədər hazırlıq təhsili 2013-cü ildəki 24 faizdən cari ildə 80 faizə çatdırılıb, 100 minə qədər və daha çox uşaq təhsilə cəlb edilib. Bu göstəricinin 2020-ci ildə 90 faizə çatdırılması planlaşdırılır.[24]

Məktəbəqədər təhsilə cəlb edilmə Avropa ölkələrini göstəriciləri ilə eyni səviyyəyə çatacaqdır.Dövlət bağçalarının yaradılması və daha yaxşı texniki avadanlıqlarla təchiz edililməsi məktəbəqədər təhsilə marağı dahada artıracaqdır. Bununla yanaşı ailə bağçaları və özəl bağçaların yardalmasına dəstəyin göstərilməsi tədbirləri olacaqdır.Daha çox yeni resurslarla təmin olunmuş məktəbəqədər təhsil müəssələrinə yaradaılması və onların fəaliyyətinə dəstəyin göstərilməsi ilə bağlı tədbirlər görüləcəkdir. Cari tədris ilində uşaqların sayı 6 min nəfərə, məktəbəqədər təhsil qruplarının sayı isə artırılaraq 328 çatmışdır. Növbəti ildə isə daha 250 qrup yaradılması gözlənilir, təhsilə cəlb edilən uşaqların sayının 12400 nəfərə çatdırılması planlaşdırılır.

Yeni məktəblərin tikilməsi və köhnə məktəblərin təmir edilməsi işləri davam etdirilərək uşaqları təhsilə təşviq ediləcəkdir.Yeni dərsliklər və resursların tətbiqi ilə 12 illik təhsil sisteminə keçid olunacaq.Bununla bağlı yeni təhsil proqramından istifadə ediləcəkdir. Təhsil sisteminin informasiyalaşdırılması məqsədi ilə, ümumilik də təhsilin müasir səviyyədə təşkil edilməsi istiqamətlərindən biridir. Bu məqsədlə 2013-2020-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılmsı ilə əlaqədar Dövlət Proqramı qəbul ediləcəkdir. Dövlət Proqramına görə Azərbaycanın bütün təhsil ocaqları internetlə təmin olunacaq, bütün təhsil müəssisəsilərinə lazım olan bütün texniki avadanlıqla təmin ediləcək və hər bir təhsil müəssisələrinin bir vahid təhsil şəbəkəsinə qoşulması planlaşdırılır. 2019 cu ilin tədris ilin Azərbaycanda ilk dəfə fərqli regionlardan və 88 ölkədən olan şagirdlərin iştirak etdiyi 31-ci Beynəlxalq İnformatika Olimpiadası (IOI 2019) təşkil edilmişdir. Həmçinin fənn olimpiadalarında 33 mindən çox şagird iştirak etmişdir. Cari ildə keçirilmiş Respublika fənn olimpiadalarında 33 mindən çox şagird iştirak edərək,

əvvəlki illərə nisbətdə 5 dəfə çox şagirddir. Qalib olan şagirdlərin 49 nəfər qızıl, 94 nəfər gümüş, 156 nəfər bürünc medal qazanmışdır. 2019-cu ildə Azərbaycan məktəbliləri bütövlükdə 14 fərqli beynəlxalq olimpiada və yarışlarda iştirak ediblər. Məktəblilərimiz 18 bürünc, 21 gümüş medal və 6 həvəsləndirici mükafat qazanıblar. 2013-2019-cu illər ərzində 126 bürünc, 4 qızıl, 35 həvəsləndirici, 50 gümüş mükafat olmaqla toplam 180 medal əldə ediblər. 5 əsas fənn üzrə keçirilən dünya olimpiadalarında məktəblilərimiz 4-ü üzrə medal qazanıblar.[24]

Elektron təhsilə keçid edilərək şagirdlər və müəllimlər üçün virtual təlim sistemi reallaşdırılacaq."Bulud texnologiyası"ilə sistemli təhsil resurslarından istifadə ediləcək və bütün şagird və müəllimlər üçün təhsil resursları əl çatan olacaq. Son tədris ilində Azərbaycan Təhsil Şəbəkəsi proqramına 1000-dən çox ümumi təhsil müəssisəsi qoşulmuşdur.

3900-a yaxın təhsil müəssisəsini əhatə edən Azərbaycan Təhsil Şəbəkəsi ölkənin bütün tədris pillələrini dövlət siyasətini həyata keçirərək təhsil qurumlarını vahid şəbəkədə birləşdirir. Respublikamızda məktəblilərin 94 faizi, müəllimlərin isə 90 faizi internetlə təmin olunmuşdur.

2018–2019cu illərdə Azərbaycanda ümumtəhsil ocaqların sayı 4443.Onlardan 4418 dövlət ,25 isə qeyri-dövlət təhsil müəssiəsidir. 2019-cu ildə Təhsil Nazirliyi tərəfindən 50-si modul tipli olmaqla, 84 məktəbin təmi və tikintisi başa çatdırılmışdır. 2003-2019-cu illər də 3300-ə qədər məktəb binası tikilib istifadəyə verilmişdir. Həmçinin əsaslı təmir edilmişdir. Bu da bütün məktəblərin 74 faizini əhatə edir.Ölkə üzrə ali təhsil müəssələrin sayı 45dir. 2018-2019 cu ildə ali təhsil müəssələrində təhsil alan tələbələrin sayı 157562. Bu göstərici hər il keçirilən qəbul imtahanları ilə artmağa davam edir.

Azərbaycan Gənc Müəllimlər Assosiasiyası istedadlı gənc müəəlilləri aşkara çıxarıb onların daha da maariflənməsi üçün yaradılmışdır. İl ərzində gənclərin inkşafına qoyulan kapitalın göstəriciləri Azərbaycan Könüllülərinin 2-ci Həmrəylik

Forumu, 13-cü Azərbaycan Beynəlxalq Təhsil Sərgisi kimi nümunələr göstərilə bilər.Təhsil üçün ayrılan büdcə 2003-cü illə müqayisədə 5 dəfə daha artmışdır, son göstərici 2011- ci ildə 1.5 milyard manat olmuşdur. Ölkədə təhsil infrastrukturunun yaxşılaşdırılması istiqamətində 1 milyondan artıq şagirdin təlim şəraiti yaxşılaşdırılmışdır. Təhsilin müasirləşdirilməsi istiqamətində zəruri islahatlar aparılmış və Avropa təhsilinə istiqamətlənməsi ilə bağlı tədbirlər görülmüşdür. "2007-2015- ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almaları üçün Dövlət Proqramı " ilə bu günə kimi Dövlət Neft Fondu maliyyələşdirilməsi ilə 1204 tələbə xaricdə təhsil almağa göndərilmişdir. Ümumilik də isə 10700 azərbaycanlı gəncin xaric də həm təhsil həmdə başqa təşşəbbüsləri üçün şərait yaradılmış və təhsil almaqdadır.Təhsilin informasiyalaşması istiqamətində bir sıra başqa tədburlər də görülür, deməli 2004-cü ildə hər 1063 şagirdə bir kompyuter düşürdü,hazırda isə hər 20 şagirdə bir kompyuter düşməsi ilə bağlı belə bir nisbət müəyyən edilmişdir.Belə islahatların nəticəsidir ki, Azərbaycan 2010-cu ildə BMT-nin İnkişaf proqramında "orta insan inkişafı" ölkələr siyahısından çıxaraq, "yüksək insan inkişafı" ölkələr siyahısına daxil edilmişdir.

FƏSİL 2. INSAN KAPİTALINA YÖNƏLDİLƏN İNVESTİSİYALARIN QİYMƏTLƏNDİRİLMƏSİ

2.1 Insan kapitalına qoyulan xərclərin konsepsiyası və nəzəri aspektləri

İnsanın rolu iqtisadiyyatın eyni ilə başqa sahələrin inkişafında daha doğru şəkildə başa düşüldükcə, onun tədqiq edilməsi və öyrənilməsi zərurəti də get-gedə daha mənalı olmuş, həmçinin bu sahələrdə edilən tədqiqatların əhatə dairəsi və intensivliyi genişlənmişdir.Buna görə son illər insan kapitalının inkişafı ilə bağlı aparılan tədqiqatlar daha da genişlənmişdir. Belə ki, baş verən mühüm iqtisadi-siyasi dəyişikliklər vəziyətində insan kapitalının inkişaf etdirilməsi və bu sərmayədən rasional istifadə edilməsi əhəmiyətlidir. Burada əsas məqsəd sosial təhqiqatların inkişafına təsir edəcək amilləri aşkara çıxarmaqdır, mümkün olan və ortaya çıxa bilən bütün sosial nəticələrin dövlət standartında həll edilməsi vəziyyətini qiymətləndirən

təhqiqatların inkişaf istiqamətlərinə ciddi təsir göstərməkdən ibarətdir. Yəni insan kapitalının inkişafıdan səmərəli istifadə olunması dövlətin fəal siyasətinin mühüm priotritetlərindən birini təşkil edir.

İnsan kapitalı istehsal gedişinin əsas hərəkətverici faktorudur, ictimai olan təkrar istehsal da geniş, xalq və kənd təsərrüfatı nöqteyi-nəzərindən məhsul istehsalının başlanılması təkrar istehsalı hesab edilir. Həmçinin bu kapitalın özünün təkrar istehsalıdır.Bu proses iqtisadçı-nəzəriyyəçilərin də diqqətin cəlb etmişdir. Adam Smit qeyd etmişdir ki, "faydalı işin istehsalının artıması ilk öncə işçinin cəld,çevikliyindən və bacarığının artırılmasından, daha sonrai maşın və alətlərdən yəni texnikanın təkmilləşdirilməsindən asılıdır". Yəni onun fikrincə işçilərin bilik və bacarıqlarından sonra isə maşınların,alətlərin, cihazların ,tikililərin səmərəliliyindən asılıdır. Bu inkişafı mürəkkəb bir sxem təşkil edir və insan inkişaf ümumi ictimai yüksəlişə ilə bağlıdır. İnsan inkişafı üçün ayrılan 3 əsas məqsəd olmasa onun ictimai yüksəlişə nail olması mümkün deyil. Bunlar aşağıdakı cədvəldə qeyd edilib.



Şəkil 3

Bunları üzərində araşdırma aparakən yalnız milli sərvət, ümumi daxili m2əhsul, adam başına düşən gəliri və s bunun kimi göstəricilərə baxmaq kifayət etmir. Ona görə ki, bu göstəricilər sosial–iqtisadi proseslərdə nəzərə alınsada lakin adekvat olaraq müəyyən etmir. XX əsrin son onilliklərindəm etibarən təkcə sosial-iqtisadi

İİ hesabatlarında verilmişəlavə əmsallar	İnsan inkişaf hesabatları nəşrləri															
	92	93	94	95	96	97	98	99	00	01	02	03	04	05	07	09
Siyasi azadlıq						X							x			X
İnsan hüquqlarının təminatı				x		X		x	x							
Özünə-hörmət				x		X		x	x							
Fəaliyyətvəifadə azadlığı	X															
Sağlam fiziki mühit	X		x													
İştirak		x	x													
İnsan təhlükəsizliyi			x		X											
Siyasi,sosial və iqtisadi azadlıqlar				x		X	X	x	x							
Yaradıcı olmaq				x		X	X	x	x	x						
Azadlıq					X	X	X	x	x	x						
Demokratiya					X											
Ləyaqət və başqalarına hörməti							X									
Səlahiyyətlənmə								x		x						
Təhlükəsizlik										x						
Dayanıqlıq										x						
Mədəni azadlıq													x			
Məhsuldar olmaq				x		X	X	x	x							

münasibətlərdə deyil,iqtisadi-elmi münasibətlərdə baxılmışdır.Yəni insan kapitalının inkişafı yalnız iqtisadi dəyərləndirmədən asılı deyil, insan cəmiyyətinin inkişafından, insanların siyasi baxışından,dövlət idarəçiliyindən,insanların yaşından cinsindən,milli mənsubiyyətlərindən də asılıdır (cədvəl 1).

İnsan problemlərinə baxılması qloblaşma prosesi zamanı həm humanitar həm də təbiət elmlərinə baxılmalıdır. İnsan kapitalının stratejik istiqamətlərini dəyərləndirmək üçün səhiyyə,təhsil,texnologiyalar və s qiymətləndirilməlidir, ona görə ki bu xüsusi aktuallıq tələb edir.

Bununla belə 1990-cı ildə BMT sammitində "İnsan potensialının inkişafı indeks" adlı yeni kateqoriya əlavə edildi. Bu kateqoriya bütün dünya ölkələri arasında hesablanır. Ölkələr arası sosial-iqtisadi göstəricilər qiymətləndirilir.

İnsan inkişafına aid olan ilk hesabat təhsil səviyyəsi ,ömür uzunluğu və gəlir nəticələrinin kompleks halda insan inkişafı indeksində (İİİ) birləşdirərək inkişafın ölçülməsi üçün metod irəli sürüldü. İİİ hesablanması üçün 3 parametrə baxılır: təhsil,sağlamlıq və gəlir.

İnsan inkişaf indeksi mürəkkəb əmsal olaraq üç indeksdən ibarətdir:

-Ömür uzunluğu indeksi- ölkələrdəki sosial müdafiənin və səhiyyənin vəziyyətindən asılıdır.[1,s-5]

-Təhsil indeksi-ölkədəki təhsil almaq imkanların əks etdirir.

-Ümumi gəlir indeksi-adambaşına düşən gəlir nəzərə alınır.



Şəkil 4. Insan inkişaf indeksi parametrləri

Təhsil səviyyəsini göstəricisi orta və gözləilən təhsil müddəti nəzərə alınaraq hesablanır.Ümumi milli gəlir isə layiqli həyat səviyyəsi yaşayan insanların adambaşına düşən gəliridir.(Şəkil 4)Gəlir və təhsil indekslərində yeni göstəricilərdən hesablanır. 2010-cu ildə təklif edilən konsepsiyaya əsasən insan inkişaf indeksi göstərilən üç əmsalla hesablanır.İnsan inkişaf indeksi (İİİ) aşağıdakı düstur ilə hesablanır:

$$\text{İİİ}=\frac{\text{İ}_{sağlamlıq}+\text{İ}_{təhsil}+\text{İ}_{\text{ÜDM}}}{3} \qquad \text{İİİ}=\sqrt[3]{\text{İ}_{sağlamlıq}\cdot \text{İ}_{təhsil}\cdot \text{İ}_{\text{ÜMG}}}$$

Ölkələrin insan inkişaf indeksi 1-dən 0-a qədər azalması ilə qiymətləndirilir.

Beləliklə ölkələr arasında 4 növ kateqoriya yaranır:

- Çox yüksək insan inkişafı
- Yüksək insan inkişafı
- Orta insan inkişafı
- Aşağı insan inkişafı

Indi isə 1975- 2004 cü illərdə dünya ölkələri arasındakı insan inkişaf indeksinə nəzər salaq.

Şəkil 5.[22] Mənbə: Insan inkişaf indeksi
https://az.wikipedia.org/wiki/İnsan_İnkişafı_İndeks



1975-2004-cü illərdə insan inkişaf indeksi:

İƏİT
Ərəb ölkələri
Şərqi Avropa və MDB
Cənubi Asiya
Latın Amerikası və Karib hövzəsi
Saharadan aşağı Afrika
ŞərqiAsiya

İndi isə 2008-2014 –cü illərdə elan edilən BMT-nin İnsan İnkişaf İndeksi göstəricilərinə nəzər salaq.

2008-ci il Hesabatı 2006-cı ilin məlumatları əsasən hazırlanmış, bu hesabata görə Azərbaycan İnsan İnkişaf İndeksi göstəricisi 0,758-ə bərabər olmaqla, 97-ci yeri 179 ölkə arasında tutmuşdur. Hesabatda "yüksək" İnsan İiğnkişaf İndeksinə malik 30 ölkə qeyd edilmişdir.

2009-cu ilin İnsan İnkişaf İndeksi Hesabatı 2007-ci ilin məlumatlarına əsasında hazırlanmışdır və 2009-cu il 5 oktyabrda elan edilmişdir. 2009-cu ilin İnsan İnkişaf İndeksi Hesabatı əsasən Azərbaycanda İİİ 0,787-yə bərabərdir. "orta" reytinqə malik olan ölkələr sırasında yer almışdır. Bu göstəriciyə 182 ölkə arasında baxılmışdır və Azərbaycan 86-cı yeri tutmuşdur.

Norveç, Avstraliya və İslandiya ümümi siyahıya görə 2009-cu ildə başçılıq edirlər. İnsan inkişafının potensialı ən aşağı göstəricisi olan 10 ölkə - Qvineya-Bisau,Burkina-Faso Burundi, KonqoDemokratik Respublikası, Çad, Əfqanıstan, Mali, Mərkəzi Afrika Respublikası, Syerra-Leone və Nigerdir.

4 noyabr 2010-cu il tarixindəki BMT-nin İnkişaf Proqramı tərəfindən hazırlanmış Hesabatında 182 ölkə yer almışdır.Bu hesabatda Türkiyə 83-cü, Ermənistan 76-cı,Gürcüstan 74-cü, Rusiya və Qazaxıstandan sonra Azərbaycan 67-ci yer tutmuşdur. İlk üç yeri isə Norveç,Avstraliya,Yeni Zelandiya qərarlaşdırmışdır.

BMT-nin İnkişaf Proqramına əsasən İnsan İnkişafı Hesabatı 2011-ci il noyabrın 2-də elan edilmiş və 2011-ci ilin məlumatlarına görə tərtib edilmişdir. Hesabatda Azərbaycan Türkiyəni bir pillə qabaqlayaraq 187 dövlət arasında 91-ci yerdə qərarlaşmışdır. Keçmiş Sovet ölkələrindən Ermənistan 86-cı,Gürcüstan 75 ,Rusiya 66,Belarus 65 yerdədir. Norveç,Avstraliya,Niderland ilk üçlüyü tutmuşdur.24 iyul 2014-də BMT-nin İnkişaf Proqramı tərəfindən nəşr olunmuş İnsan

İnkişafı Hesabatı və İnsan İnkişaf İndeksi göstəricisi 2013-cü ilin nəticələri ilə müəyyənləşmişdir. Norveç,Avstraliya,İsveçrə,Niderland və ABŞ ilk beşlikdə yer alır.

Son olaraq 2018 ilin hesabatında Azərbaycan 189 ölkə arasında 80-cı yeri tutur. Bütün ölkələr 4 parametr ilə qiymətləndirilmişdir.

- ✓ Adam başına düşən ümumidaxiliməhsul,
- ✓ Orta ömür müddəti,
- ✓ Təhsilin orta müddəti ,
- ✓ Təhsilin nəzərdə tutulan müddəti.

BMT-nin İnsan inkişafının indeksinə uyğun olaraq, Azərbaycan 0,757 göstərici ilə insan inkişafının yüksək olduğu ölkələr siyahısına daxil olubAzərbaycanda insanın orta ömür müddətinin uzunluğu 72,1 il. Əhalinin ömrü boyu təhsilin müddətinin orta uzunluğu 12,7 ildir. Bu təhsilin 10,7 ili məktəb illərinin payına düşür. Adambaşına düşən ümumi milli gəliri isə 15,6 min dollar qiymətləndirilir.

BMT-nin İnsan inkişaf indeksinə görə ölkələr 4 kateqoriyada bölünür:

- çox yüksək həyat səviyyəsi,
- yüksək həyat səviyyəsi,
- orta həyat səviyyəsi,
- aşağı həyat səviyyəsi.

Çox yüksək həyat səviyyəsi olan ölkələr Qazaxıstan (58), Belarus (53) ,Rusiya (49), Latviya (41), Litva (35), Estoniya (30)yerlə kateqoriyaya daxildirlər.

İkinci kateqoriyaya görə Moldova (112) Özbəkistan (105), Türkmənistan (108) Ukrayna (88), Ermənistan (83), Azərbaycan (80), Gürcüstan (70) yüksək həyat səviyyəsi olan ölkələr kimi daxil ediliblər.

İnsan kapitalı bəzi qərb iqtisadiyyatçılarının qeyd etdiyi kimi, insana aid olan en erjidən,biliklərdən,təcrübələrdən və başqalardan ibarətdir. Bu dediklərimiz müəyyən zaman çərçivəsində xidmətlərin görülməsi və malların istehsalı məqsədi ilə istifadə ol una bilər.

Dediyimiz təcrübələrin, biliklərin əldə olunması, sağlamlıqların nəzarətdə saxlanmas ı və yüksəldilməsi insan potensialının inkişaf indeksinin tədqiqi ilə bağlıdır. Nəzərə alaq ki,insan kapitalının inkişafı ,onun maddi və mənəvi tələbatlarının ödənilməsi həyat səviyyəsi ilə əlaqədardır. Qeyd etdiyimiz kimi insan kapitalının inkişaf problemlərinin və yaxud məsələlərinin tədqiqi insan kapitalına qoyulan investisiya və həyat səviyyəsinin məcmusunun əlaqəli şəkildə araşdırması daha məqsəd uyğundur. Cəmiyyətin əməyə olan bacarıq və vərdişlərin toplanması fərdi içşi qüvvələrinin inkişafı xeyli zəhmət xərci tələb edir.Bu, maddiləşdirilmiş əməyin bir növü kimi hələ də daha çox tədqiqata ehtiyacı olaraq qalır. Bu mövzuda aparılan tədqiqatlardan məlum olur ki, işçi qüvvəsinin peşəkar hazırlığına,təhsil səviyyəsinə,əməyin yüksək keyfiyyətinə 1960-cı ildən sonra güclü maraq artıb.Bu illərdə fərdi sosial-iqtisadi fayda vermiş insanların vərdişləri,bilikləri və başqa xüsusiyyətlərini göstərən insan kapitalı konsepsiyası yaranır.Bu konsepsiyanın əsasında "Çikaqo məktəbi"nin nümayəndələrindən Corc Mincer,Herri Bekker,Li Xansen,Teodor Şults kimi görkəmli Amerika iqtisadçıları dayanır.Onlar bu konsepsiya ilə bu fikri irəli sürürlər ki, gələcəkdə böyük gəlirlər əldə etmək üçün səhiyyəyə,miqrasiyaya,təhsilə,elmə və cəmiyyətə yönələn investisiyalar qoyulmalıdır.Qoyulan bu investisiya bütün cəmiyyət üçün faydalı olmaqla bərabər maddi və mənəvi tələbatın yüksəldilməsinə, inkişafına xidmət göstərir. Bu nəzəriyyənin əsasını nəzəri cəhətdən gələcəkdə rifahın yüksəldilməsini,insan sərmayəsinə bu investisiyanın səmərəliliyini qiymətləndirməyə imkan yaradır. Qeyd edilir ki, bu xərclərdən qayıtmaq müxtəlif formalarda təzahür edir. Bu formalar göstərdiyimiz sxemdə verilib.



Şəkil 6.

Prestijli işin əldə olunması üçün tədrisin gedişatında qazanılmış insan kapitalı həmçinin işin gedişatında öyrənilmiş vərdişlər təşkil edir.Bu nəzəriyyədə əmək haqqı səviyyəsindəki fərqlər ilə müxtəlif işçilərin əmək məhsuldarlığındakı fərqlər əsas götürülür.Daha çox qazanan və yüksək məhsuldarlığa malik olanlar təcrübəli işçilərdir. Corc Mincer 1974-cü ildə yazdığı "Təhsil,təcrübə və gəlir" kitabında əmək haqqının iki hissədən toplanması barəsində danışır: a)əsas əmək haqqı, b)əlavə əmək haqqı

Bilik və bacarığın qazanılması,öyrənilməsi anadan olandan ölənədək davam edir.Bu səbəbdən insan kapitalı aşağıda göstərilən şəkildə inkişaf edir:

- erkən uşaqlıq dövründə ailə daxilində öyrətmə;
- erkən uşaqlıq dövrü daxil olmaqla formal təhsil,məcburi təhsil,ali təhsil,peşəkar təhsil və.s;
- iş yerlərində peşəkar səviyyədə hazırlama,innovasiya, tədqiqat vasitəsi ilə təhsilin artırılması;
- gündəlik həyatda,mülki fəaliyyətdə və iş yerlərində qeyri-formal şəkildə bacarıqların təkmilləşdirilməsi.

Öz təbiətinin müxtəlifliyinə görə insna kapitalı fərqlənir. Bacarıq və vərdiş fərqli vəziyyətlər və hadisələr üçün ümumi,yüksək və yaxud qismən yararlı ola bilər. 1994 –cü ildə CohnSon və Lundval biliyin 4 kateqoriyasını göstərmişlər:

1. Nə bilmək-faktlar biliklərə aiddir.
2. Nə üçün bilmək –biliklərə insan şüuru və cəmiyyət, təbiətin qanunları daxildir.
3. Necə bilmək –bilik vərdişlərə aiddir.
4. Kim bilmək-sosial olan qabiliyyətlərə fərqli insan tipləri olan qarşılıqlı əməkdaşlıq aiddir.

İnsan kapitalı fiziki kapitaldan fərqli olaraq insanlarda mövcuddur. Bu ikisinin analogiyası belədir: 1)investisiyanın qoyulması ilə fayda alınması arasındakı zamana görə uyğunluq olmur; 2)müəyyən vaxt ərzində faydalı olur.Yəni hər bir halda insan kapitalının fərqi ondan ibarətdir ki, o, istehlakçı müstəqilliyinin qaydalarını tətbiq edə bilmir, istehlakçı bu zaman hansısa bir məhsulu ala vəona sahib ola bilmir. Formal və qeyri-formal təhsil almaq ilə insan kapitalı investisiyası həm işgüzar fəaliyyət prosesində həm də ondan kənarda təcrübə və tərbiq etmə ilə artır. Əgər insan sərmayəsi az istifadə olunursa qiymətdən düşmə faizi daha yüksək olur. İnsan kapitalına daxil edilən şəxsi keyfiyyətlər və biliklər bu şəkildə strukturlaşdırıla bilər. [8]

1. Kommunikasiya
- Danışmaq bacarığı;
- Söhbətin başa düşülməsi;
- Məktub;
- Mütaliə.

2. Hesablama
3. Şəxsiyyətdaxili bacarıqlar
4. Şəxsiyyətlər arası bacarıqlar

- Liderlik
- Komanda ilə iş

Fukuyama fikrinə görə iqtisadi fəaliyyətlər fərd tərəfindən deyil,təşkilatların nəzdində həyata keçirilir. Bu isə sosial kooperasiya yüksək dərəcəsini tələb edir.Van Buren və Leana 1999-cu ildə iş daxilində təşkilatı kapitalı müəyyənləşdirirlər.

Fərdin öyrəndiyi təhsilin qazanılmış səviyyəsi və yaxud təhsil ilinin sayı vərdişin asan ölçülə bilən göstəricilərinə xidmət göstərir. Bu çatışmazlıq bundan ibarətdir ki,onlar qeyri-formal peşəkar təcrübənin və hazırlığın köməyi ilə qazanılmış insan kapitalını əks etdirə bilmir və fərqli-fərqli təhsil vahidlərini çətin müqayisə edir. Kasıblığın ümumi göstəricisi yaşayış minumumudur və onun hazırlanmasında əsasən iki göstərici özünü göstərir: a)minumum istehlak büdcəsi b)minumum yaşayış büdcəsi. Minumum yaşayış büdcəsini hesablamaq üçün ərzaq səbətindən istifadə edirlər və o,həyat standartıdır. Minumum istehlak büdcəsi isə istehlakçı bazarı və istehlakçı ənənəsi əsasında hesablanır. Bu səbəbdən bu göstərici yaşayış səviyyəsinin yuxarı standartıdır. Çox vaxt onların nisbəti 1:2 kimi təyin edilir. Minumum istehlak büdcəsini istehlak səbətinin sayəsində hesablayırlar. Bu səbətin dəyəri minimal istehlak büdcəsi ilə eynidir. O,minimal səviyyədə maddi nemət istehlakını özündə göstərir. Şübhəsiz ki,minumum istehlak büdcəsi ən mühüm məhsulların və xidmətlərin cəmini özündə əks etdirir. Ən rasional istehlak büdcəsi 2.7% -vergi və ödəmələr, 13.2% -xidmətlər, 39% -qeyri-ərzaq, 46.1% -ərzaq kimi qəbul olunur. Həyatın dəyəri indeksini yaşayış minumum əsasında hesablayırlar. Həyatın dəyəri isə istehlak sturukturu və qiymətlərindən asılıdır. Bu məsələyə istehlakın tələbinin dəyişməsi hadisəsi təsir göstərə bilər. Həyatın dəyəri indeksi əhalinin rifah səviyyəsinə öz təsirin göstərməlidir. Bu səbəbdən qeyd edilən həyat səviyyəsinin qiymətinin dəyişməsi vaxtı vacib götürülən xərclər müqayisə olunur. Deyilən göstəriciləri hesablayan vaxt əhalinin bir qrupunun xərclərin sturukturuna uyğun istehlakçı səbəti tələb olunur. Bunun dəyəri baza və cari qiymətləri ilə hesablanır sonra alınan kəmiyyətlər müqayisə olunur.

İh.d=YMİ/YMO

Göstərilən YMO və YMİ müvafiq olaraq baza və cari ilində yaşayış minumumudur. Ancaq qeyd etmək lazımdır ki,bu cür hesablamalar həyat səviyyəsinin dəyişməsin deyil təkcə deyilən qiymətlərin o səviyyəyə təsirini göstərir. Bir çox alimlər haqlı olaraq irəli sürürlər ki,indiki vaxtda ictimai tərəqqinin vəziyyəti iqtisadi inkişaf ilə bərabər insanın cəmiyyətdəki yeri ilə vəziyyəti ilə o cümlədən onların dünyagörüşü,sağlamlığı,uzun ömürlülüyü müəyyənləşdirilir. Əvvəlki dövrlərlə müqayisədə fərdlərin davranış motivləri informasiya cəmiyyətində dəyişir. İnsan amilinin rolu indiki qloballaşma prosesində daha yüksəkdir. Biz bilirik ki, hal-hazırda informasiya texnologiyalarının genişlənməsi cəmiyyətin bütün sahələrində mühüm rol oynayır. Ancaq bu texnologiyanın hansı istiqamətə (tərəqqi və tənəzzülə,sülh və müharibəyə,xeyir və şərə) xidmət göstərməsi bilavasitə insnalaarın özündən asılıdır. Mənəvi-psixoloji amillərin formalaşmasıda həmin inkişafa xidmət edən faktorlardan biridir. Insanın inkişafı xüsusi metodloji prinsip kimi ötən əsrin 90-cı illərin BMT-nin və ya bir çox ölkələrin diqqət mərkəzinə çevrilmişdir. Elə bu səbəbdən 1990-cı ildən başlayaraq BMT –ni dəstəyi ilə bir çox ölkələrdə hər il insan inkişafı haqqında hesabat adlı toplu çap edilir. Bu toplunun nəşr edilməsi Azərbaycanda 1995 –ci ildən başlayaraq davam etmişdir. İnsan potensialının inkişafı həm beynəxalq cəhətləri həm də milli cəhətləri özündə cəmləşdirir. Beləki müxtəlif ölkələrdə insan potensialının inkişafı üçün müəyyən şəraitin təmin olunması imkan yaradır. Beynəlxalq təşkilatların bu inkişaf modelinə keçməsi insan potensialının inkişafının beynəmiləl olduğunu göstərir.[1,s-15]

2.2 Insan kapitalinin inkişafinin qiymətləndirilməsi

Uzun illərdir ki,ayrı-ayrı ölkələrdə tərəqqinin inkişaf kriteryası,cəmiyyətin iqtisadi inkişafı ÜDM-in (ümumi daxili məhsul) və ÜMM-in(ümumi milli məhsul) adambaşına düşən həcmi ilə dəyərləndirilir. Bu göstəricilər ikinci dünya muharibəsindən sonra dünya bankı və beynəlxalq valyuta fondu tərəfindən təyin olunub.Ancaq bu inkişafın gedişatında məlum oldu ki,ÜDM –in adambaşına düşən

həcmi bir sistem kimi insanın inkişafının real vəziyyətini tam əks etdirə bilmir. İnsan inkişafının inteqral göstəriciləri BMTİP(Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı) tərəfindən 1992-ci ildən tətbiq olunmuş insan inkişafı indeksi bizim fikrimizcə daha məqsədə uyğundur. Aşagıda göstərilən cədvəldə hal-hazırda beynəxalq qurumlar tərəfindən və ayrı-ayrı ölkələrdə insan inkişafının mühüm parametrlərini əks etdirən şəbəkə təqdim edilmişdir. Bu cədvəldə təqdim edilən həmin indekslərin respublikamızın hazırki vəziyyətində məqbul qəbul edə bilərik.

(Cədvəl2)İPİ-nı (insan potensialının inkişafı) müəyyən edən əsas parametrlər.[8]

Indekslər	**Orta ömür müddəti**	**Təhsil səviyyəsi**	**Həyat səviyyəsi**
İnsan potensialı inkişafı indeksi	Gözlənilən ömür müddəti	Yaşlı əhalinin təhsil səviyyəsi	Əhalinin adambaşına düşən dəqiq gəliri
Gender amili nəzərə alınmaqla inkişaf indeksi	Qadın və kişilərin gözlənilən ömür müddəti	Qadın və kişilərin təhsil səviyyəsi	Qadın və kişilərin gəlir payı
İnkişaf etməkdə olan ölkələr üçün əhalinin yoxsulluq indeksi	40 yaşa qədər yaşaya bilməyən əhalinin faiz	Yaşlı əhalinin təhsil səviyyəs	1.tibbi xidmətlərdən və təmiz içməli sudan əziyyət çəkən əhalinin faizi 2. normal çəkisi olmayan 5 yaşa qədər uşaqların faizi
İnkişaf etmiş ölkələr üçün yoxsulluğun indeksi	60-yaşa qədər yaşaya bilməyən əhalinin faizi	Əhalinin avropa standartlarına uyğun təhsil səviyyəsi	Yoxsulluq səviyyəsi həddindən aşağı olan əhalinin faizi

Cədvəl 2

Bir çox sosial göstəriciləri özündə cəmləyən bu şəbəkə informativ xarakter daşıyır.Əsasən bu indekslər yaşlı əhalinin savadlılıq dərəcəsəsi ÜDM-in adambaşına düşən həcmi gözlənilən ömür müddətini özündə göstərir.İPİ-nin səviyyəsinin qiymətləndirilməsi gözlənilən ömür müddəti indeksindəndə asılıdır deyə qeyd etdik.Əhalini sağlamlığının qorunması işçi qüvvəsinin keyfiyyətli işi ömür müddətini

uzadılmasına təkan verir. Nəzər alaq ki,ömür müddətin uzadılması qarşısında olan maneələrə QİÇS(Qazanılmış İmmun Çatışmazlığı Sindromu) digər cinsi səhiyyə problemlərinə eləcədə yoluxucu xəstəliklərə yoluxma meylini göstərməklə hər bir şəxsin sağlamlığının qorunması yönündə görülən bütün tədbirlər baxımından dünya miqyasında inkişaf etmiş və kasıb ölkələr arasında heç bir fərq olmuyaraq müntəzəm şəkildə həyata keçirilir.Nəzərə alaq ki,səhiyyə xidmətləri sistemlərində əsas diqqət sağlamlığın optimal şəkildə saxlanmasına deyil,müxtəlif xəstəliklərin müalicəsinə yönəlmişdir.Buna görə bir sıra ölkələrdə ömür müddətinin uzadılmasında sağlamlığın vəziyyətini göstərən sosial-iqtisadi faktorlara yetərincə nəzarət edilmir. İnkişaf etməkdə olan bir sıra ölkələrdə vətəndaşlarına yüksək keyfiyyətli tibbi xidmət göstərmələrinə onun əhatə dairəsinin geniş olmasına imkan verməyən amillərdən biri də bu ölkələrdə yoxsulluğun və inkişaf səviyyəsinin aşağı olmasıdır. Səhiyyə sisteminin yenidən qurulması və onu özəlləşdirməyə meylin artması, o cümlədən maliyyə və kadr potensialının çatışmazlığı səhiyyə xidmətlərinin azalmasına,keyfiyyətin aşağı düşməsinə yardıma ehtiyacı olan insanların sağlamlığına nəzarətin azalması ilə nəticələnir.

Aşağıda qeyd edilən düstur ömür müddət indeksin hesablanmasına kömək edir.

$$\textbf{Indeks} = \frac{\boldsymbol{faktiki\ qiymət - minimal\ qiymət}}{\boldsymbol{maksimal\ qiymət - minimal\ qiymət}}$$

Bu zaman aşağıda verilən göstəriciləri nəzərə almalıyıq:

-BMT İP tərəfindən təyin edilmiş yüksək həddə olan ömür müddəti ,il

-BMT İP tərəfindən təyin edilmiş ən aşağı həddə olan ömür müddəti,il

-Tədqiq olunmuş ölkədə orta ömür müddəti

Yaşlı nəslin təhsil səviyyəsi. Artıq hər kəs dərk edir ki,təhsil insanların səlahiyyətlərinin artmasını təmin edən,həyata baxışının dəyişməsinə səbəb olan ən qiymətli vasitələrdən biridir.Təhsil səviyyəsi indeksi əsasən iki mərhələdə özünü

göstərir.Birinci mərhələ əhailinin savadlılıq səviyyəsi ilə əlaqədardır. Bura məktəbə qədər tərbiyə,ibtidai,orta,ümumtəhsil məktəblərində təhsil alma faizi daxildir.Yəni bu mərhələdə bütün əhalinin oxuyub yaza bilən şəxslərinin xüsusi çəkisi göstərilir. Məktəbəqədər tərbiyə təhsilin başlanğıcı hesab olunur. Ümumi təhsil isə 3 mərhələdən ibarətdir: ibtidiai təhsil,əsas təhsil,orta təhsil. Əsas təhsil məcburidir,çünki bu təhsili başa vuran şagirdlər istədikləri incəsənət,peşə məktəblərində müxtəlif ümumi təhsil məktəblərinin orta təhsil pilləsində davam etdirmə imkanı verir. Üçüncu pillədə isə xüsusi istedada malik şagirdlər üçün təbiət ,riyaziyyat,hümanitar təmayüllər və ixtisas sinifləri açılır. Bu təhsil pilləsində bütün siniflər üzrə şagirdlərin orta sıxlığı 15 nəfər təyin edilir.[1,s-17]

İşləyən şəxslərin orta təhsil alması üçün ümumtəhsil müəssisələrində qiyabi və axşam təhsil qrupları yaradılır. Bu zaman ümumi təhsilin təyin olunmuş vaxtdan qabaq başa çatdırılmasına da imkan yaradılır. Orta ixtisas təhsil proqramlarını həyata keçirən tədris müəssələrindən biridə orta ixtisas məktəbləridir. Ali təhsil proqramlarını həyata keçirən ali təhsil müəssələri olur.

Qeyd edək ki, bütün tarixi mərhələlərdə cəmiyyətin inkişafı bilavasitə onun təhsilin tərəqqisindən həmçinin onun əhəmiyyətinin doğru düzgün qiymətləndirilməsindən asılı olub. Hər bir dövrlərdə insanların tələbatı təhsilin tərəqqisini sürətləndirmiş, elmi-texniki inkişaf isə təhsil sistemi qarşısında həlli daha vacib olan vəzifələr qoymuşdur. Qloballaşmanın daha çox vüsət alan informasiya cəmiyyətinin iqtisadi və sosial fəaliyyətində rəqabətin artdiğı təbii resursların aşağı düşdüyü bu müasir dövrdə təhsilin rolu artmaqda davam edir. Onu da qeyd edək ki, XXI əsri BMT "təhsil əsri" elan etmişdir. Şübhəsiz ki, yüksək intellektual biliyə malik insan formalaşmasında, güclü iqtisadiyyatın qurulmasında xüsusisən ali təhsilin rolu indiyə qədər belə aktual olmamışdır.

Hal-hazırda bütün dünyada hər bir ölkənin gələcəyi onun təhsilin səviyyəsi ilə əlaqədardır. Təcrübələrdən görürük ki, təbii sərvətin çoxluğu dövlətin tərəqqisinin əsas göstəricisi deyil, həmin bu sərvətlərin əhalinin istiqamətləndirici qüvvəsi olan

insan sərmayəsinə çevrilməsini təmin edir. Bu, indiki mərhələdə təhsil sisteminin ən vacib vəzifəsidir. Yaponiya, ABŞ, Cənubi Koreya və başqa inkişaf etmiş ölkələr qazandığı təbii resurslardan daha çox təhsilin yetişdirdiyi insan kapitalından yüksək gəlirlər əldə edirlər. Tədqiqatlar sübut edir ki,adı çəkilən ölkələrdə inkişafa təsir edən amillərdən təhsilin səviyyəsi daha yüksəkdir və təxmini 70 faiz göstərir. İntelektual sərvət digər sərvəytlərdən daha üstündür. Intelektual sərvətin olması cəmiyyətin inkişafına təsir göstərir.

Texnoloji nailiyyətlər indeksi (TNİ): Aydındır ki, hazırki cəmiyyətin hər bir sahəsində informasiya texnologiyalarının genişlənməsi əsas rolu oynayır.

Texnoloji nailiyyətlər indeksi dörd komponentə ayrılır:

-Müasir texnologiyaların yaradılması – bu texnologiyanın yaradılması indeksi bu göstəricilərdən asılıdır: müəlliflik, hər sakinə düşən patent sayı və lisenziya ödənişləri.

-Müasir texnologiyaların yayılması – bu indeksə təsir edən amillərə internet xidmətlərindən daha çox istifadə və həmçinin idxalda yeni və orta səviyyəli texnologiya məhsullarının qəbul edilməsi aiddir.

-Ənənəvi texnologiyaların yayılması – hər bir ölkədə fəaliyyət göstərən ənənəvi sahələrin inkişafı üçün ənənəvi texnologiyaların yayılmasından və davam etdirilməsindən danışılır.

-Peşə bacarıqları – bu indeks, insan potensialının texnoloji nailiyyətlərin dəyərləndirilməsinə imkan verdiyi üçün, texnoloji nailiyyətlər indeksinin ən mühüm komponentlərindən biri hesab olunur. Bu əsas göstərici orta təhsilin müddətindən və ali təhsilin səviyyəsində tədrisə cəlb olunan əhalinin faizinə əsaslanır.

Deməli, insan potensialı indeksinin inkişafında təhsil indeksini müəyyənləşdirmək üçün yaşlı əhalinin savadlılıq göstəricisi (2/3 əmsalı ilə) ,bilik və

üçüncü mərhələnin ibtidai orta və təhsil müəssələrində təhsil alanların ümumi göstəricisi (1/3 əmsallı çəki ilə) qiymətləndirilir.

Göstərdiyimiz bu hesablamanı müəyyənləşdirmək üçün isə istifadə edilən hər bir kontingent üçün istifadə olunan maksimum və minimum qiymətlər qoyulur. İndeksləri göstərilən cədvəldəki rəqəmlərdən istifadə etməklə qəbul edilmiş formula əsasən hesablaya bilərik

(Cədvəl3)İndeksin hesablanmasında istifadə edilən minimal və maksimal qiymət:

Göstərici	Maksimum qiymət	Minimum qiymət
Yaşlı əhalinin savadlılıq səviyyəsi (%-lə)	100	0
Təhsil alanların ümumi kontingenti (%-lə)	100	0

Cədvəl 3

Hesablama formulu aşağıdakı kimidir:

$$\textbf{Indeks} = \frac{faktiki\ qiymət - minimal\ qiymət}{maksimal\ qiymət - minimal\ qiymət}$$

Ümumi Daxili Məhsulun (ÜDM)hesablanması:

İnsan potensialının inkişafı indeksi (İPİİ) - insan inkişafına təsir göstərən əsas amillərdən biri də adambaşına düşən ÜDM-dir. İPİ-da Ümumi Daxili Məhsulun alıcılıq bərabərliyi əsasında hər bir şəxsə düşən həddi ilə təyin edilir və müşahidə edilən qiymətləndirmə indeksi isə bu düsturun köməkliyi ilə hesablanır.

$$\textbf{ÜDM indeksi} = \frac{loq_x - loq_{100}}{loq_{4000} - loq_{100}}$$

Burada qeyd olunan x - tədqiqat aparılan ölkədə hər bir nəfərə düşən ÜDM-in alıcılıq qabiliyyəti pariteti (AQP) əsasında qiymətidir. Bu indeks həyat səviyyəsi göstəricisi ilə əvəz olunur. Həyat səviyyəsi göstəricisi cəmiyyətdə yaşayan insanların tələbatlarının inkişafını özündə cəmləşdirir. Minimal istehlak büdcəsi – bu uşaqların inkişafı və artım ,yaşlıların həyat fəaliyyəti həmçinin b aşqa ən vacib tələbatların təmin edilməsinə imkan verən gəlir səviyyəsidir. Rasional istehlak büdcəsi – qida məhsullarının istehlakının elmi tərəfdən qəbul edilmiş normaları əsasında formalaşır.

Qidalanma

Azərbaycan Dövlət Tibb Universitetinin (ADTU) "Qidalanma gigiyenası və kommunal gigiyena" kafedrasının qidalanma ilə bağlı xərcləri əhalinin fərqli peşə və yaş-cins qrupları üzrə təyin etmişdir. Minimal qida məhsulları sırasın qida növünün kalorilik səviyyəsini praktiki olaraq təmin edən, kimyəvi tərkibinə görə həm keyfiyyət, həm də kəmiyyətcə tam önəmli hesab edilən bütün vacib qida məhsulları göstərilmişdir. Bu qaydaya əsasən tərtib edilən sutkalıq qida növünə aid olan məhsulların kalorilik səviyyəsi adambaşına gündə 2607 kaloriyə bərabər olmalıdır. Onu da qeyd etməliyik ki, zülalların, kimyəvi tərkibi nəzərə alınan zaman yağların və karbohidrogenlərin tərkib nisbəti ardıcıl olaraq 1:1:4 nisbəti kimi qeyd olunur və minimal kalori təyin edilən zaman əmək fəaliyyətinə görə fərqlənir.

Qeyri-ərzaq məhsulları

Qeyri-ərzaq məhsullarının alınmasına çəkilən xərclər öz xüsusi çəkisinə görə 3 yerə ayrılır. Buraya məişət malları yəni yataq ləvazimatı, paltar,ayaqqabı, mebel, sanitariya-gigiyena predmetləri, qab-qacaq kimi mallar aiddir.

Xidmətlər

MİB-in strukturunda mühüm yer tutan məsələlərdən biri də xidmətlər haqqının ödənilməsi ilə bağlı xərclərdir. Bu xərclər cəmiyyətin fərqli cins-yaş qruplarına

əsasən mədəniyyət obyektlərinin və mənzil-məişət təsərrüfatnın,istirahət obyektlərinin və nəqliyyat xidmətlərinə, minimal zərurət əsasında qəbul edilmişdir.

Yoxsulluq səviyyəsi

Yoxsulluq indeksi insan potensialına tərəqqisinə təsir edən faktorlardan biridir. Yoxsulluq hər bir ölkənin qarşılaşdığı, iqtisadi və sosial inkişafdan asılı olaraq fərqli təzahür edən bir problemdir. Yoxsulluq ölkədə istehlakın paylanmasından, orta gəlir və istehlak səviyyəsindən asılıdır. Beləliklə konkret cəmiyyətdə ən azından bir vətəndaşın o cəmiyyətin standartlarına cavab verən minimumdan aşağı səviyyədə yaşayışı olduğu vəziyyətdə yoxsulluqdan söz etmək olar.

Yoxsulluğun sərhədlərinin təyin edilməsi üçün yoxsulluğu qiymətləndirən göstəricilər bir sistem halında müəyyənləşdirilməlidir. Bəzən gəlir və istehlak göstəricilərindən,yəni pul göstəricilərindən istifadə edilir. Yoxsulluğun qiymətləndirilməsində istehlak göstəricilərini əsas götürmək daha məqsədəuyğundur və aşağıdakı faktorlarla bağlıdır:

1. istehlak nəticə göstəricisi kimi qəbul edilib.

2. istehlak həyat imkanların və onun səviyyəsinin standartlarını əks etdirir.

Bir sözlə, yoxsulluğu 2 formada nisbi və mütləq kimi təyin edirlər. Mütləq yoxsulluq aşağıdakı şəkildə təsnif edilir:

- yaşayış minimumu aşağı gəlirli olan əhalinin sayı;
- yoxsulluq əmsalı – yoxsul əhali ilə ümumi əhalinin nisbəti;
- gəlirlərin median qiyməti;
- orta qiymətindən aşağı olan əhali;
- aztəminatlı ailələrdə adambaşına düşən gəlirin dəyişmə indeksi;
- mənfi artımlı ev təsərrüfatlarının nisbi ölçüsü, sayı;
- gəlirlərin və yaşayış minimumunun nisbəti;

Bu göstəricilərin hamısı ölkədə yoxsulluğun dərinliyini, sərhədlərini təyin etməyə şərait yaradır. Mütləq təyindən başqa yoxsulluğu nisbi də müəyyən etmək olar. Bu metodla qəbul edilən həddi cəmiyyətin başqa üzvlərinin istehlak və gəlir səviyyələri ilə nisbət kimi müəyyən etməliyik. Bir sözlə, yoxsulluq həddinin müəyyən etmək dövlətin yürütdüyü siyasət ilə əlaqəlidir. Əslində yoxsulluq statistik anlayışdır. Dinamik cəhətdən həyat səviyyəsi yüksələn əhalini varlılaşan, aşağı düşən əhalini isə kasıblaşan cəmiyyətə aid etməliyik. Deməli, dinamikada əhalinin qrupları öz maddi vəziyyətlərin fərqliliyi istiqamətində təsnifatlara bölünür: yoxsullaşan ,varlaşan və öz vəziyyətini sabit saxlayan

Ölkələrdə vəziyyəti qiymətləndirmək üçün yoxsulluğun profili də müəyyən etmək lazımdır. Yoxsulluğun profili – ayrı-ayrı qrupların yoxsulluqlarının keyfiyyətlərini əks etdirir. Yoxsulluğun təyin edərkən aşağıdakı tədqiqatların aparılması daha məqsədəuyğun hesab olunur:

1) ev təsərrüfatı dəstələrinin yoxsulluq göstəriciləri;

2) yoxsulluq göstəricisində fərqli ev təsərrüfatı qruplarının bölgüsü

3) nisbi risk – bu risk göstərilən qrupun digərinə nisbətdə yoxsulluğu ehtimalını əks etdirir.

Yoxsulluğun qiymətləndirilməsi zamanı cəmiyyətin arasında yoxsul cəmiyyətinin payı, yoxsulluğun kəskinliyi və dərinliyi hesablanır. Bütün bu göstəricilər aşağıdakı düstur ilə müəyyənləşdirilir:

$$\mathbf{İ_{İPİİ}} = \frac{İ_{GÖM} + İ_{T} + İ_{ÜDM}}{3}$$

$İ_{İPİİ}$ - insan potensialının inkişafı indeksi;

$İ_{GÖM}$ -gözlənilən ömür müddəti indeksi;

$İ_{T}$ -təhsil indeksi;

$İ_{ÜDM}$-ÜDM-in (alıcılıq qabiliyyəti pariteti əsasında) indeksidir.

Qeyd etdiyimiz bütün bu fikirlər hər bir ölkədə insan potenasialı inkişafının indeksi səviyyəsinin qiymətləndirilməsinə,dəyərləndirilməsinə və bu sahə üzrə olan bir sıra problemlərin həlli istiqamətində müxtəlif fikirlərin söylənməsinə imkan yaradır.[1,s-18]

FƏSİL 3. SOSİAL Ve İQTİSADİ İNKİŞAFDA İNFORMASİYA TƏMİNATININ ROLU VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ

3.1.İnformasiya prosesləri və informasiya təminatı

İnformasiya termini mənşəyi latın sözü olub, *şərhetmə, izahetmə, məlumatvermə* mənalarını daşıyır və «informatio» sözündən yaranmışdır. İnformatika elmində informasiya təyin olunmayan anlayış kimi qəbul edilir.

İnformasiya ifadə olunma formasından asılı olmayaraq insanlar, canlılar, cansızlar, proseslər ,hadisələr, faktlar,və s. haqqında olan bilik və məlumatlardır. Biliklər isə faktlar və onlar arasındakı qarşılıqlı asılılıqlar şəklində ifadə olunur. İnformasiyanı ötürmək, yaratmaq, emal etmək, saxlamaq mümkündür. İnformasiya cəmiyyətdə dövr edən bir prosesdir.[23]

İnformasiya təbiətdə siqnallar formasında ötürülür və aşağıdakı kimi iki tipə ayrılır:

- *Analoq*
- *Rəqəmli*.

İnsanlardan asılı olan, hissiyyat üzvlərinə görə analoq siqnallar kimi ötürülən həmçinin kompyuterlər ilə emal edilib ötürülən rəqəmli siqnallar şəklində olan informasiyalardır.

Müxtəlif informasiyalar fərqli intensivliyə malik olan siqnallar daşıyır. Belə tipli informasiyalara *analoq informasiya* deyilir. Analoq informasiya davamlıdır yəni

kəsilməzdir- insanlar təbiətdə iki eyni formalı bulud və ya yarpaq görə bilməz. Kompyuterdə isə informasiya fərqli xüsusiyyətə malik verilənlər şəklində olur. Hər hansı bir şəkilin rəngi nə qədər parlaqdırsa, kompyuterin yaddaşında da bu siqnal bir o qədər çox olur. Bunları bütün növ siqnallar üçün eyni ilə səs və başqa siqnallara aid etmək olar. Belə formada təsvir olunan informasiya *rəqəmli informasiya* adlandırılır.

Rəqəmli informasiyalar diskretdir,yəni ki, forma,səs və rənglərin sonsuz müxtəlifliyinin təsviri üçün ədədlərin sonlu və müəyyən sayından istifadə olunur. Analoq informasiyanın rəqəmli informasiya şəkilində təsviri analoq-rəqəmli çevrilmə kimi adlanır. Belə çevrilmədə istifadə olunan ədədlər nə qədər fərqli olarsa, rəqəmli informasiyanın diskretliyi, yəni ki, onun dəqiqliyi də bir o qədər artıq olar, yəni rəqəmli informasiya analoqa yaxın olur.
Informasiyanın istifadəyə yarar olmalıdır bunun üçün aşağıdakı şərtlər ödənilməlidir. Qeyd olunanlar informasiyanın xüsusiyyətləridir:

- tam şəkildə təsvir olunmalıdır;
- həqiqiliyi əks etdirməlidir;
- maksimum az məsrəflə əldə edilməlidir yəni qiymət
- əhəmiyyətli olmalıdır yəni ki,istifadəçi üçün vacib olmalıdır;
- həmin situasiyada tələb edilən olmalıdır;
- mənalı ,aydın olmalıdır yəni ki,istifadəçinin başa düşdüyü tərzdə hazırlanmalıdır.[9]

Tipinə görə verilənlərin aşağıdakı 4 qrupu var:

- hesabi və ya rəqəm tipli;

- mətn və ya simvol tipli;
- məntiqi tipli;
- göstərici tipli.

Informasiyanın yeddi məlumat prosesi var və COASTPD(Collect, Organise, Analyse, Store(/retrieve), Transmit(/receive), Process and Display) kimi tanınan bir qısaltmaya uyğundur. Bu toplamaq, təşkil etmək, təhlil etmək, saxlamaq (/ almaq), ötürmək (/ almaq), proses və keçirmək kimi adlanır. Bu yeddi məlumat prosesini izlədikdən sonra, bir məlumat sisteminin məlumatları necə toplayaraq emal etməsi və sonra istifadəçi və ya məqsəd üçün göstərməsi ilə addım-addım gedə bilərsiniz. Hər birinin məqsədi aşağıdakılardan ibarətdir:

Toplama -bir məlumat sisteminin və ya ətraf mühitin məlumat sisteminin işlənməsi üçün məlumatları əldə etməsi və daxil olması prosesidir.

Təşkilatçılıq-bir məlumat sisteminin toplanmış məlumatları məlumat prosesinin digər hissələri üçün daha yararlı bir formaya salan prosesdir.

Təhlil- bir məlumat sisteminin, indi təşkil edilmiş məlumatları təhlil etdiyi və ondan nələr çıxarmağı qərara aldığı bir prosesdir.

Yadda saxlama (/ almaq) -məlumat sisteminin sonrakı tarixdə və ya dərhal istifadə ediləcəyi məlumatları saxladığı (/ əldə edən) bir prosesdir.

Ötürülmə (/ qəbul etmək)- məlumat sisteminin digər məlumat sistemi ilə məlumatların kollektiv şəkildə ötürülməsi və işlənməsi üçün danışdığı bir prosesdir.

Qenerasiya- bir məlumat sisteminin məhz bunu etdiyi, daha çox faydalı və ya faydalı ola biləcək yeni bir nəticə yaratmaq üçün məlumatla əlaqədar yuxarıda göstərilən hər şeyi emal edən bir prosesdir.

Göstərmək- məlumat sisteminin işlənmiş məlumatları göstərməsi və istifadəçilər üçün məqsədlərinə cavab verdiyi son prosesdir və iştirakçıların bunun üzərində işləməsinin səbəbidir.

Indi isə informasiya prosesləri ilə ətraflı və dəqiq tanış olaq.

Toplama

Toplama əslində bir giriş prosesidir. Məqsəd, ətraf mühitdən məlumat sistemindəki digər informasiya proseslərinə məlumat verməkdir. Məlumat toplamaq üçün yalnız tələb olunan məlumatların tutulması deyil; eyni zamanda məlumatların nə üçün lazım olduğunu, haradan gələcəyini və necə kodlanacağını bir anlayışdır.Hansı məlumatların tələb olunduğuna qərar vermək üçün sistemi və məqsədini təhlil etməlisiniz. İdeya eyni məlumatları dəfələrlə yığmadan və ya əvvəllər əldə edilmiş məlumatları istifadə etməklə hesablana bilən məlumatları toplamadan tələb olunan məlumatları müəyyən etməkdir.Məlumat mənbəyi haradan qaynaqlandığıdır. Bu veb saytlar, müştərilər və temperatur sensorlar ola bilər. Sisteminiz üçün hansı məlumat mənbəyinin ən uyğun olduğunu müəyyən edərkən məlumatların mövcudluğu, məlumatların keyfiyyəti və məlumatların dəyəri kimi bir sıra məsələlər var.

Təşkilatçı

Təşkilat etmə, məlumatların quruluş və təqdim ediləcəyi formanı müəyyənləşdirən prosesdir. Bu proses məlumatın özünü dəyişdirmir, əksinə quruluş və təqdimetmə üsulunu dəyişdirir. Təşkilat məqsədi, digər informasiya proseslərinə məlumatların onlardan istifadə edə biləcəyi ən səmərəli şəkildə təmin etməkdir.Təşkilatçılığın quruluş hissəsi, məlumatları müəyyən və məntiqi şəkildə tənzimləyən prosesdir. Struktur, təşkil edilən məlumatları istifadə edən məlumat prosesləri üçün ən səmərəli bir şəkildə hazırlanmışdır.Təşkilatçılığın təmsiledici

hissəsi məlumatı istifadə edən informasiya prosesləri tərəfindən effektiv şəkildə başa düşülən şəkildə kodlaşdıran prosesdir.

Təhlil edir

Təhlil, məlumatı informasiyaya çevirən prosesdir. Məlumatları elə tərcümə edir ki, insanlar üçün başa düşülə bilər. Məlumatlar tendensiyaları müəyyənləşdirmək, bir ssenarini modelləşdirmək və ya simülasyon etmək və ya dəyişikliyin təsirlərini öyrənmək kimi müxtəlif səbəblərdən təhlil edilir. Təhlil edildikdə faktiki məlumatlar dəyişmir, sadəcə asanlıqla başa düşülə bilən bir şəkildə göstərilir.Təhlil edilmiş məlumatlar, nəticəyə təsir edən bütün amillər nəzərə alınmasa, çox güman ki, səhv məlumat əldə edəcəksiniz.

Saxlama və əldə etmək

Saxlamaq və almaq bir məlumat sistemində vacib bir prosesdir. Onsuz məlumatları xatırlamadan təkrar istifadə etmək olmaz. Yadda saxlama, məlumatları bir saxlama qurğusuna qənaət etmə və əldə etmək, istifadə olunan vəziyyətdə saxlanılan məlumatların yenidən yüklənməsi prosesidir.İki növ saxlama, uçucu və dəyişkən deyil. Dəyişkən saxlama, qeyri-uçucu yaddaş, disket və sabit disk kimi elektrik enerjisi olmadan məlumatları saxlaya biləcəyi yer olduğu təsadüfi giriş yaddaşı (RAM) kimi məlumatların yadda saxlanması üçün elektrik enerjisi tələb edən bir anbardır.

Emal olunur

Emal, yeddi məlumat prosesinin beşinci prosesidir və sistemdəki mövcud məlumatları dəyişdirən yeganə prosesdir. Emal məlumatları yeniləmək və redaktə etməklə manipulyasiya edir. Həm də emal tez-tez digər informasiya proseslərinin qurulmayan hissəsinə çevrilir. Kompüter əsaslı bir sistemdə emal prosesi mərkəzi emal bölməsi (CPU) tərəfindən həyata keçirilir. Bir məlumat sistemində işləmə nümunəsi Microsoft sözündən istifadə edərək bir inşa redaktə etməkdir.

Ötürmə və qəbul etmək

Ötürmə və qəbul etmək yeddi informasiya prosesinin altıncısıdır. Məlumat prosesidir hansı ki, məlumat sistemləri arasında məlumatları ötürür. Bu proses imkan verir ki, müxtəlif qurğular və bütün uğurlu rabitə arasındakı üç əsas komponentin əlaqəsi olsun. Bunlar göndərən, orta və bir alıcı tələb edir.

Göstərir

Göstərmək, yeddi məlumat prosesinin son prosesidir. Son bir məlumatı bir məlumat sistemindən çıxarır. Göstərmək ümumiyyətlə məlumatı ekranda təqdim etmək deməkdir. Məlumat göstərmək üçün məlumatın necə göstəriləcəyi ilə bağlı qərar tələb olunur. Bəzi ümumi ekran cihazları bir monitor, printerlər və dinamiklərdir. Göstəriş nümunəsi bir dostun doğum gününün videosunu çəkməkdir.

3.2. Informasiya təminatının təkmilləşdirilməsi

İnnovativ inkişafın təmini informasiya sistemləri ilə əlaqəlidir.İnformasiya prosesləri necə daha çox dövr eləsə inkişaf daha çox olacaq. Deməli bu proses bütün sahələrin iqtisadi inkişafına təsir edəcək amildir. İnformasiyanın təminatı prosesi elə informasiyanın göstərdiyimiz yeddi prosesi ilə əlaqəlidir. Elm və texnikanın sürətli inkişafı bütün peşə sahələrinə,şirkətlərə,özəl sektora eyni ilə dövlət sektoruna xüsusi təsir edir.Bütün sektorlarda informasiyanın təmin edilməsi təkmilləşdirilir. Elektron hökümət,elektron kitabxanalar,distant təhsil,sağlamlıq üçün online konsultasiyalar və.s hər biri informasiya təminatını reallaşdırır. İnnovasiyanın əsas strukturu,innovasiyaya aid olan elmi profil,innovativ sürət,innovativliyin idarəetmədə rolu,innovativ xərclər,innovatix texniki məhsullar innovasiyaya aid olan elmi-texnoloji möbadilələr hər biri informasiya təminatının təkmilləşməsi prosesinə təsir edən göstəricilərdir.

İnnovasiya artım prosesi səmərəliliyini xarakterizə edən aşağıdakı göstəricilər var:

- ✓ innovasiyalılıq,
- ✓ texnologiyanın işlənilməsi prosesinin davametmə müddəti,
- ✓ elmi kadrlarla təminatlılıq dərəcəsi,
- ✓ marketinq proqnozunun icrası,
- ✓ investisiya vəsaitlərinin xərclənməsi,
- ✓ innovativ inkişafın nəticəliliyi

İnformasiya təminin təkmilləşdirilməsi onun tətbiqindən və işlənib hazırlanmasında əsas məqsəd ondan ibarətdir ki, şirkətin doğru şəkildə idarə edilməsi üçün müasir və yeni informasiya təchizatından istifadə edilməlidir buna görə onların yaradılması əsas şərtdir. Şirkət 3 səviyyə ilə idarə olunur: operativ ,stratejivə taktiki. Bütün ölkələrdə sosial-iqtisadi,elmi-texniki tərəqqinin inkişafın yeni şəraitində başlıca idarəetmə doğru qərarlarının qəbul etməni həyata keçirmək üçün zəruri olan əsas amil informasiyanın emalından və toplanmasından ibarət olan idarəetmə fəaliyyətinin informasiya təminatının rolu artmaqdadır. Rəhbərlər və liderlər tərəfindən təşkilat menecmentin problemlərinə və onların fəll yollarına maraq daim çoxalır. İdarəetmənin ən effektiv metodları şirkət və təşkilatlar arası rəqabət qabiliyyətinin artmaq amili, biznesin daha səmərəli aparılmasının əsas aləti kimi daha çox qəbul edilir. Müasir dövrdə ən təsirli idarəetmə özü ilə təşkilatın dəyərli resursunu verməlidir. Buraya material, maliyyə, insan və başqa resurslar da aiddir.

İnformasiya sistemi termini informasiya təminatının təkmilləşdirilməsində xüsusi yeri vardır. Yəni ki, informasiya sistemi –idarəetmə prosesində informasiyanın emalı,toplanması,saxlanması və s proseslərini həayata keşirərək informasiyanı təmin edir. İnformasiya təmini informasiya sistemində məlumat prosesləri vasitəsilə baş tutur.İnformasiya sisteminin aşağıda qeyd olunan elementləri göstərilmişdir:

- ✓ Informasiya toplanması,
- ✓ Informasıyanın dövriyyəsi təşkili,
- ✓ Informasiyanın aktuallaşdırılması və saxlanması,
- ✓ Informasiya sistemin texiniki təmin olunması,
- ✓ Informasiyanın proqram yəni riyazi təminaı,
- ✓ Informasiyanın verilməsi.

Informasiyanın təmin edilməsi mərhələləri aşağıdakı qaydada formalaşdırılır:

- ✓ İnformasiyanın toplanması, hazırlanması və işlənməsi;
- ✓ İnformasiyanın göndərilməsi və kodlaşdırılması;
- ✓ İnformasiya ötürmə və kanalı vasitələri;
- ✓ İnformasiyanın kodun açılması və alınması.

Bu mərhələlərdən əlavə olaraq, alınan informasiyanın həqiqiliyini yoxlamaq üçün üçün "əks əlaqə"" prinsipi ilə eyni proses əksinə aparmaq kifayətdir. Onda bu halda qəbul edilmiş informasiya birinci məlumatla ilə eyni olarsa o, doğru informasiya kimi qəbul edilir və sonrakı addım araşdırmalar üçün əsas amil kimi götürülür.

İnformasiya təminatı qeyd elədiyimiz kimi bir çox sahələrdə özünü göstərir. Menecmentdə informasiya təminatı ,Marketinqdə informasiya təminatı və s. İnformasiya təminatı iqtisadiyyat sahəsinədə inteqrasiya edir. O insan kapitalının qiymətləndirilməsində xüsusi mövqe tutur. Bilik iqtisadiyyastının inkişafı insan kapitalı müsbət təsirlər edir,bilik iqtisadiyyatı isə birbaşa informasiya sistemləri həmçinin onun təminatı ilə əlaqəlidir.

İdarəetmədə prosesində istifadə olunan informasiyaları daha çox aşağıdakı mənbələrdən təmin olunur:

- İnformasiya büroları
- Mətbuat, kütləvi informasiya vasitələri
- Ticarət - sənaye komitəsi
- Statistika idarəsi
- Standartlaşdırma və metrologiya komitəsi
- İqtisadi Inkişaf nazirliyi
- Banklar
- Xidmət və məsləhət firmaları və s.

Bu qeyd olunanlardan birlikdə, başqa mənbələr də vardır. Ancaq, elə mənbələr vardır ki, onlardan informasiya alınmasında məhdudiyyət qoyulur. Məsələn, Dövlət Statistika Komitəsində, Gömrük Komitəsində, Maliyyə Nazirliyində və digər belə dövlət təşkilatlarında kifayət qədər ictimai- iqtisadi informasiyalar olsa da, onlardan bu kimi vacib məlumatları almaq daha çətindir. Vergilər Nazirliyindən və hər bir rayon üzrə vergi müfəttişliyindən də lazımı məlumatları alaq məhdud çərçivədə əldə etmək olur. Həm kommersiya bankları, həm də dövlət informasiya təminatı mənbəyi kimi əsas rol oynayır. Bununla birlikdə, başlıca olaraq elmi-texniki tərəqqinin inkişafı ilə bağlı yeni resurs və məhsullar istehsalını qeyd edən referativ jurnallarda daha geniş informasiyalar olur. Bu jurnallardan faydalı bir çox məlumat almaq olar. Arxivlərdən, elm, kitabxanalardan və təhsil mətkəzlərindən, həmçinin elektron-informasiya şəbəkələrindən informasiya təminatı mənbəyi kimi istifadə edilir. İNTERNET isə müasir zəmanədə ən yaxşı informasıya təmin edicisidir.Sosial şəbəkələr,saytlar və.s informasiya əldə etmək üçün ən yaxşı vasitələrdir.Onların emal

və saxlanmasını isə texniki təchizatla təmin edilir. İnformasiyanı internetdə,kitablarda və.s kimi məlumat mənbələrindən komputerlər,telefonlar,televizor,radiolarlar vasitəsi ilə almaq olur.Bu prosesi daha yaxçı təkmilləşdirmək internetin sürətindən və həmin mənbələrdən düzgün formada istifadəsindən asılıdır. İnformasiya təminatının təkmilləşdirmək üçün müasir texnologiyalardan istifadə edilməlidir. İnformasiya cəmiyyətinin inkişafı onunn təminatı ilə sıx bağlıdır. İdarəetmə fəaliyyətində informasiya ən vacib materialdır. İdarəetmə prosesinə görə informasiya təminatı olduqca əhəmiyyətlidir. İnformasiyalar təşkilatların və müəssisələrin hər bir sahələrində istifadə olunur. İdarəetməyə aid olan informasiyaları təşkilatın fəaliyyətinin ona qiymət verilməsində və təhlil olunmasında əsas rol oynayır. Bu şəkildə idarəetmə informasiyalarına aşağıda qeyd olunanlar aid olunur.

- Firmanın plan nəticələri haqqında informasiya;
- Təşkilatın səmərəlilik səviyyəsi və Təşkilati-struktur aid informasiya;
- Təşkilatın maliyyə potensialı aid informasiya;
- Təşkilatın məhsul istehsalının həcminə aid olan informasiya;
- Satış nəticələri və onun fəaliyyəti haqqında informasiya;
- Bazarın son vəziyyəti haqqında informasiya;
- Müəssisənin mənfəəti və gəliri haqqında informasiya;
- Təşkilatın balans göstəricilərinə aid edilən informasiya.

3.3..İnsan kapitalının inkişafında informasiya təminatının rolu

XXI əsrin başlanğıcında İnformasiya və Kommunikasiya Texnologiyalarının (İKT) cəmiyyətin tərəqqisinə təsir edən əsas amillərdən birinə çevrilmişdir.

sosial-texniki dəyişiklik		
aqrar dəyişiklik	sənaye inqilabı	informasiya inqilabı

Cədvəl 4

İnformasiya inqilabı ən müasir informasiya kommunikasiya texnologiyalarının tətbiqi ilə sosial həyatın informasiyalaşdırılması kimi göstərilir və indiki dövrümüzdə aktual proseslərindən birinə keçid etmişdir.

XX əsrin 80-ci illərində kompüterlər yeni yaranan an cəmiyyət onun müxtəlif imkanları haqqında tam təsəvvürələrlə tanış deyildi, informasiya əsri başlayır və dünyanı, onun keçmişini tam şəkildə dəyişir. Hal-hazırda formalaşmaqda davam edən informasiya sözünü çoxları təsəvvür belə edə bilməzdi. Artıq son zamanlarda informasiya texnologiyalarının sürətlə inkişafı nəticəsi olaraq biz yeni İnformasiya Dünyasına keçid dövrünü yaşayırıq. Bu keçid mərhələsi zamanı insanları nə kimi hadisələrin gözlədiyini bilməsək də lakin bilməliyik ki, kompüter əsri cəmiyyəti daha çox inkişaf etdirəcək və beləliklə informasiya cəmiyyətinin yaranmasına təkan verəcək. İlk başda qurulan məzmunu və əlaqələrin forması dəyişəcək həmçinin yeni iqtisadi sahələrin yaranmasına təkan verəcək, bu kimi dəyişiklik fərdi kompüterlərin yaratdığı imkanlardan daha da güclü olacaq. Belə ki, elektron poçt, multimedia məhsulları, internet, intellektual sistemlər,elektron ticarət, fərdi kompüterlər, elektron bank, virtual oyunlar, İP-telefon, obrazların və nitqin tanınması – bunlar hər biri növbəti inqilabı dəyişikliyi yaradan əsas amillər olacaq.

İnformasiya Dünyası mövzusu insan kapitalının inkişafında kütləvi informasiya və kommunikasiya vasitələrinin, sammitlərin,seminarların, elmi konfransların,diplomatik görüşlərinin əsas müzakirə obyektinə çevrilir. Son dövrlərdə artıq cəmiyyətin hər bir üzvi vəzifəsindən asılı olmayaraq buna böyük maraq

göstərilir. Bütün ölkələrdə informasiya cəmiyyətinin tam formalaşması çoxşaxəli bir prosesdir.

Azərbaycanda insan kapitalının inkişafı informasiya cəmiyyətinin yaranmasına yol açan əsas amildir. Azərbaycanda həyata keçirilən dövlət siyasəti informasiya-kommunikasiya texnologiyalarının ayrı bir sahə kimi inkişaf etməsinə təsir göstərir. Müasir Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları energetika sektorundan sonra inkişaf etmiş ikinci sahə hesab edilir.

Dünya iqtisadiyyatının inkişafının önəmli ünsürü insan kapitalı və informasiya resursu anlayışlarıdır.İnformasiya resursu(komputer,modem,internet və.s) həmçinin ona daxil olan məlumat və bilik toplusu insan kapitalına daxil edilir, bununla yanaşı onun təməli və bazası vardır. Vətəndaş cəmiyyətinin yaradılması,cəmiyyətin informasiya resursları ilən təmin edilməsi, iqtisadiyyatın inkişafı, informasiya təhlükəsizlikləri, və s. bunların hər biri insan inkişaf faktorudur. Ekspertlər ilk olaraq "informasiya iqtisadiyyatı" , “informatika " və “informasiya cəmiyyəti" terminləri haqqında məlumatları dünyanın ən yaxşı inkişaf etmiş ölkələri yaymışlar. Bu terminlərlə sinonim olan terminlər aşağıda qeyd olunub; "cəmiyyət bilik", "yeni iqtisadiyyat","innovasiya iqtisadiyyatı", "açıq iqtisadiyyat", "bilik", "açıq cəmiyyət", "bilik iqtisadiyyatı" . Başqa sözlə desək, vətəndaş cəmiyyətinin inkişafı və tərəqqisi iqtisadiyyatın artım tempinə müsbət təsir edir,beləliklə insana ayrılan kapitalın bir hissəsi informasiya cəmiyyətinə aiddir.

İKT imkanlarından səmərəli istifadə etmək insanların yaşayış səviyyəsini yüksəldir,rifahını yaxşılaşdırır, informasiya cəmiyyətinə keçid dövrünü sürətləndirir. Bu layihənin məqsədi aşağıda göstərilənlərdən ibarətdir:

- Cəmiyyətin zehni əmək və dünya kitabxanasına dəvətin təbliği;
- İqtisadiyyatda təhsilli kadrların hazırlanması üçün şərait yaratmaq;
- İnformasiya cəmiyyətin inkişafı ilə və onun çəkisini artırmaq;

- Elektron hökumətin inkişaf etdirilməsi;
- Elektron hökumətin tətbiq etdirilməsi;
- Təhsil sistemində İKT resursları ilə tədrisə keçid etmək;
- İnsan kapitalında intellektual mülkiyyətinin qorunmasına qoyulan xərclərə zəmin yaratmaq;
- Cəmiyyətdə kompüterdən istifadənin geniş yayılmasını dəstəkləmək;
- Aztəminatlı ailələrin İKT bilik səviyyəsinin artmasına qoyulan investisiya;
- Əhali arasında komputerləşdirmə işinin aparılması;
- Ölkələr üzrə hər bir şəxsə düşən kompüter sayının orta göstəricilərini çatdırmaq.

İKT-nin sürətlə inkişafı əmək məhsuldarlığının artım göstəricilərindən asılıdır. Beləki bu göstəricilər müəyyən dövrlərdə hər bir ölkə üzrə dəyişir. Məsələn, ABŞ-da əmək məhsuldarlığının artımını aşağıda göstərilən cədvəl 5-də görmək olar.

İqtisadiyyat Sektoru	1958 -1973 ill.	1973 -1979 ill.	1979 -1990 ill.	1990– 1998 ill.
İstifadə edilməyən kompyuterlər	3,1	1,6	1,6	2,6
İstifadə edilən kompyuterlər	2,6	1,1	3,2	5,7

Cədvəl 5.Əmək məhsuldarlığının artım tempi ABŞ-

İnformasiyanın cəmiyyətə çatdırılması üçün informasiya proseslərindən istifadə olunur. İnformasiya proseslərida resurslar və insanlar arasında qarşılıqlı əlaqə nəticəsində yaranır. Deməli, insanın zehni əməyi və iş qabiliyyəti ona ayrılan kapitaldan asılıdır.

NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dünyada iqtisadiyyatın sürətli inkişafı insan faktorundan asılıdır,yəni bütün sahələrdə insan əsas obrazdır. Təbii sərvətlər (qızıl,neft,qaz və s.)tükənə bilər ancaq insan elə bir sərvətdir ki, onu tükənmə ehtimalı daha aşağıdır. Bu səbəbdən insana qoyulan investisiya daha böyük önəm kəsb edir. İnsan kapitalına qoyulan investisiya elə bir fəaliyyətdir ki,bu işçinin ixtisası və bilik-bacarığı,həmçinin əmək məhsuldarılığının artmasına istiqamətləndirilmişdir. Bu fəaliyyəti həyata keçirmək üçün ayrılan xərclər hər bir şəxsin qabiliyyət,bacarıq və təhsil səviyyəsinin yüksəldilməsinə, həyat keyfiyyətinin yaxşılaşmasına, sağlamlığının qorunmasına yönəlməlidir.

Bu investisiyaya hər bir şəxsin sağlamlığı,intellektual səviyyəsi və əmək qabiliyyəti daxildir. Struktur baxımından insan kapitalı investisiyasının istiqamətləri müxtəlifdir, ancaq bunlardan yalnız ikisi əsas istiqamət kimi götürülür:bunlardan biri təhsil, digəri sağlamlığın qorunmasıdır.

İnsanların sağlamlığının təmin edilməsi üçün xəstəxanalar tikilməli,xəstəxanalar xüsusi ləvazimatlarla təchiz edilməli,sağlamlıq siğortası verilməli,düzgün qidalanma diqqət edilməli,psixoloji dəstəyə ehtiyacı olan insanlara dəstəyin göstərilməli,epidemiya xərcləri ödənilməlidir. Bundan başqa əmək qabiliyyətli işçilərə müvafiq profilaktik tədbirlər görülməsi müalicəsi,müayinəsi də bura daxildir.

İntellektual səviyyənin yüksək inkişafı üçün təlim tədris obyektləri müasir standartlara cavab verməli,buna uyğun tədris proqramları yaradılmalı,həssas kateqoriyadan olan əhaliyə təhsil xərclərində yardım edilməlidir. Bilik iqtisadiyyatına qoyduğu investisiyanın hesabına ABŞ,Almaniya,Yaponiya İsveçrə kimi dövlətlər öz adlarını inkişaf etmiş ölkələr sırasına daxil etmişdir. Məsələn,Almaniya iki dəfə

dünya müharibəsində məğlubiyyətlə üzləşməsinə baxmıyaraq ,bilik iqtisadiyyatına dəyər vermiş və yenidən hal-hazır ki mövqeyini qazanmışdır.

Qeyd olunan bütün investisiyalar cəmiyyətin sosial- iqtisadi rifahını daha da gücləndirir. Hal-hazırda sosial-iqtisadi inkişafın tendensiyasını yaratmaq üçün ölkələr arası beynəlxalq əlaqələr qurulur. Son 30 ildə respublikamızda bu məqsədlə görülən işlərin və bunlara ayrılan xərclərin həcmi ilbəil artmaqda davam edir. 2006-2018-ci illərdə görülən işlərə nəzər salsaq görərik ki,bu tədbirlərə ayrılan büdcə ilə əvvəlki işlərə ayrılan büdcə arasında dəfələrlə fərq görünməkdədir. Dövlət büdcəsində incəsənət, mədəniyyət, bədən tərbiyəsi, informasiya və digər sahələr üçündə ayrılan maliyyə vəsaitlərin həcmi isə 11,8 dəfə artmış və 2001-ci ildə isə 20,12 mln.manatdan 2013-ci ildə 240,82 mln.manata yüksəlmişdir. Bu maliyyə xərcləri sosial-mədəni,iqtisadi fəaliyyətlərə göstəricilərdən də görüldüyü kimi 5,7%-4,5% dəyişmişdir.Bu sahələrə ayrılan vəsaitlərin artımına baxmayaraq paralel olaraq dövlət büdcəsinin də artmış olmasından ayrılan xərclər 1 % enmişdir. Buradan göründüyü kimi, cəmiyyətdə insan kapitalına qoyulan investisiyanın qiymətləndirilməsi hər zaman dövlətin sosial-iqtisadi inkişafına zəmin yaradır.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikası Iqtisadiyyat Nazirliyi Iqtisadi Islahatlar Elmi Tədqiqat Institutu Insan Kapitalinin Inkişafi: Nəzəri Aspektləri Və Qiymətləndirmə Metodologiyasi Bakı – 2017 s-5,s-15

2. BMTİP Azərbaycan. İnsan İnkişafı. Dərslik (sınaq nüsxəsi). Bakı – 2013

3. Kamran Imanov Əqli Mülkiyyət Və Insan Kapitali

4. Türkmen, F. (2002), "Eğitimin Ekonomik ve Sosyal Faydaları ve Türkiye' de Eğitim Ekonomik Büyüme İlişkisinin Araştırılması", DPT- Uzmanlık Tezleri, 1 -114

RUS DİLİNDƏ

5. Беккер Гэри. Человеческий капитал (главы из книги). Воздействие на заработки инвестиций в человеческий капитал // США: экономика, политика, идеология. - 1993.- N 11-12.

6. Рубцов Л., Гагарин В. Уровень оплаты труда и текучесть кадров: зависимость обратная. // Человек и труд, 2002, №7.

7. К.Н. Чигоряев, Н.А. Скопинцева, В.В. Ульященко - Оценка Стоимости Человеческого Капитала На Основе Произведённых Затрат с-55

8. Цирель. С. Экономический рост и информационные технологии: компаративистский подход ВЭ. 2004. 92-111. №11; WorldDevelopmentIndicators, 2002.

İNGİLİS DİLİNDƏ

9. Azerbaijan Human Capital Index Rank 69 out of 157

10. Becker, G.S. and N. Tomes (1976), "Child Endowments, and the Quantity and Quality of Children", NBER Working Papers, Paper No. 123.

11. Barro, R.J., "Economic Growth in a Cross Section of Countries", Quarterly Journal of Economics. 56, 1991, 407- 443.

12. Barro, R.J., Human Capital and Growth in Cross-Country Regressions. Harvard University Press, 1-46, 1998.

13. Levinger B. Critical Transitions: Human Capacity Development Across the Lifespan. Education Development Center, 1996, səh. 56-69

14. Ibrahim Güran Yumuşak The Economic Importance Of Human Capital And Turkey's Human Capital Potential

15. "Intergenerational Transfers of Human Capital: Evidence on Two Types of Education Externalities", University of Wisconsin, Madison,1-28.

16. Norman A.C. Information Society: An Economic Theory of Discovery, Invention, and Innovation. Boston: Kluwer Academic Publishers, 1993. P. 120.

17. Nelson, R. ve E. Phelps (1966); "Investment in Humans, Technological Diffusion, and Economic Growth", American Economic Review, 56, pp. 69-75.

18. Swan, T. (1956); "Economic Growth and Capital Accumulation", Economic Record, vol.32, pp.334-361.

19. Watchel, P. (1997), "A Labor-Income Based Measure of the Value Of Human Capital: An Application to the States of the US: Comments", Japan and the World Economy 9, s193-196.

20. Walter W. Powell & Kaisa Snellman. The Knowledge Economy. Annual Review of Sociology, Vol. 30, 2004

İNTERNET RESURSLARI

21. Dövlət statistika komitəsi, https://www.stat.gov.az/source/education/

22. https://az.wikipedia.org/wiki/İnsan_İnkişafı_İndeksi

23. https://az.wikipedia.org/wiki/İnformasiya

24. Azərbaycan Respublikasının Təhsil Nazirliyi, http://www.edu.gov.az

25. World bank, www.worldbank.org/en/publication/human-capital

ABSTRACT

There is competition between all countries on different issues, the most important of which is competition with human capital. The most important elements of human life are health, knowledge and labor, and the investment in these factors is called human capital. For normal living conditions, a person must earn an income, so the evaluation of labor activity is important and is carried out by the salary fund.

In addition to the monthly salary paid to employees, it also includes taxes, benefits and insurance. The dissertation is divided into 3 chapters. The role of human capital assessment, analysis and information provision in human capital assessment. The importance of human capital and information resources in the information society has been studied. The role of information provision in social and economic development and the improvement of human investment are important.

РЕЗЮМЕ

Существует конкуренция между всеми странами по разным вопросам, наиболее важной из которых является конкуренция с человеческим капиталом. Важнейшими элементами человеческой жизни являются здоровье, знания и труд, а инвестиции в эти факторы называются человеческим капиталом. Для нормальных условий жизни человек должен получать доход, поэтому оценка трудовой деятельности важна и осуществляется фондом заработной платы.

Помимо ежемесячной заработной платы, выплачиваемой работникам, она также включает налоги, пособия и страховку. Диссертация разделена на 3 главы. Роль оценки человеческого капитала, анализа и информационного обеспечения в оценке человеческого капитала. Изучено значение человеческого капитала и информационных ресурсов в информационном обществе. Важна роль информационного обеспечения в социально-экономическом развитии и улучшении человеческих инвестиций.